www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 iyul 2018-ci il Bazar ertəsi № 140 (7029) Qiyməti 60 qəpik

**Xəbər**

## Xaçmazda faciə: Xəzər dənizi daha bir can aldı

yazısı səh.14-də

**Gündəm**



### Yeni kəsim qaydaları əti bahalaşdıra bilər

İqtisadçı ekspert və satıcılar səbəblərdən danışdılar; ancaq qiymət qalxmaya da bilər, əgər...

yazısı səh.4-də

### Göyçayın körpü və çay dərdi: növbəti çökmənin üzə çıxardığı faktlar

yazısı səh.3-də

### 2018-ci ilin 6 ayı geridə qaldı: iqtisadiyyatımızda nələr dəyişdi?

yazısı səh.6-da

### İşğaldan qurtuluş ssenariləri masa üzərində - mühüm gəlişmə

yazısı səh.11-də

### Tramp Krımı Rusiya ərazisi kimi tanısa... Qarabağa da təhlükə?

yazısı səh.9-da

### Anomal istilərdə günvurmadan necə qorunmalı: risk qrupları, tövsiyələr

yazısı səh.14-də

### ABŞ-dan Türkiyəyə qarşı müəmmalı qadağa

yazısı səh.12-də

### Braziliya-Meksika: 42-ci qarşılaşmanın qalibi kim olacaq? - Mundialda kritik qarşılaşma

yazısı səh.13-də

### Putinin adamları Cocuq Mərcanlıya gəldilər

yazısı səh.2-də

### Yayda qida zəhərlənmələri - bunu hamının bilməsi vacibdir

yazısı səh.14-də

# BAKI SON MÜHARİBƏ HAZIRLIĞI İÇİNDƏ - 5 GÜNLÜK TƏLİMDƏ ƏSAS HƏDƏF

Paytaxtdakı möhtəşəm paradın ardınca bu gün ordumuz genişmiqyaslı hərbi təlimə başlayır; 20 minlik canlı qüvvə, yüzlərlə döyüş texnikası poliqonlarda; **politoloq:** "İlham Əliyevin Rusiya səfərindən sonra ordumuza döyüş tapşırığı verilə bilər..."




yazısı səh.8-də

## Qaxda Qarabağ qazisinin evini yandırıblar, özünü isə ölümlə, həbslə hədələyirlər

Keçmiş döyüşçü və prezident təqaüdçüsündən şok açıqlamalar; **İlqar Cəlilov:** "İşıq idarəsinin müdiri hakimin yanında deyir ki, sənin ağzından atdıracağam"

yazısı səh.5-də



*Qüdrət Həsənquliyev:*

### "Fermer soğanın kisəsini 3 manata satır, bunu Allah da qəbul eləməz"

yazısı səh.7-də



### Ərdoğan Bakıya mühüm mesajla gəlir

yazısı səh.9-da



*Natiq Cəfərli:*

### "İran pulunun ucuzlaşması Azərbaycana da təsir edəcək"

yazısı səh.3-də

**2 iyul 2018**

# Putinin adamları Cocuq Mərcanlıya gəldilər

**Rusiyanın deputatlarından və tanınmış ekspertlərindən ibarət nümayəndə heyəti Azərbaycana səfərə gəlib. APA-nın məlumatına görə, dünən Rusiya nümayəndə heyəti Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər edib.**

Səfərdə məqsəd rusiyalı və azərbaycanlı ekspert və deputatların iştirakı ilə Bakı və "Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda konfransın keçirilməsidir. Konfransın təşkilatçıları Beynəlxalq Avrasiya Hərəkatı, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması və Rusiyadakı Azərbaycan İcması və Ekspertlər Klubudur.

Tədbirdə Rusiya tərəfdən Rusiya Dövlət Dumasının Korrupsiya ilə mübarizə üzrə komitəsinin sədr müavini Dmitriy Savelyev, Dövlət Dumasının deputatı Aleksey Yezubov, Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksadr Duqin, məşhur jurnalist, ictimai xadim Maksim Şevçenko, Ekspertlər Klubunun üzvü Valeriy Korovin, Milli müdafiə jurnalının redaktoru, hərbi ekspert İqor Korotçenko, Beynəlxalq Avrasiya Hərəkatının Yaxın Şərq departamentinin direktoru Andrey Xarçenko, İrs İnstitutunun direktoru Yevgeniy Baxrevskiy, ekspert Dmitriy Kruqlıy, Moskva Beynəlxalq Universitetinin kafedra müdiri Sergey Komarov, ekspert Darya Durqin, Beynəlxalq Avrasiya Hərəkatının sədr müavini Sergey Loqinov, Azərbaycan tərəfdən Azərbaycan-Rusiya parlamentlərarası İşçi qrupunun rəhbəri, deputat Əli Hüseynli, Azərbaycandakı Rusiya icmasının rəhbəri, deputat Mixail Zabelin, deputat Elman Məmmədov, deputat Fazil Mustafa iştirak ediblər.






## XİN: "Azərbaycan xalqı və dövləti heç zaman qəbul edə bilməz ki..."

**"Ermənistan aqressiv hərbi doktrinaya malikdir və militarist siyasət yürütməkdə davam edir". Musavat.com xəbər verir ki, bunu Ermənistan xarici işlər nazirinin Almaniyada və xarici işlər nazirinin müavininin ATƏT-in təhlükəsizlik konfransında çıxışı ilə əlaqədar XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.**

H.Hacıyev deyib: "Ermənistan tərəfindən işğala və təcavüzə məruz qalan ölkə kimi Azərbaycan münaqişənin danışıqlar yolu ilə tezliklə həllində və etnik təmizləməyə məruz qalmış azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının təmin olunmasında ən maraqlı tərəfdir. Amma Azərbaycan xalqı və dövləti heç zaman qəbul edə bilməz ki, əraziləri işğal altında qalsın.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğu və bu əsnada Ermənistanın gücdən istifadə edərək Azərbaycana qarşı davam edən təcavüzü regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olaraq qalmaqdadır. Bu azmış kimi Ermənistan aqressiv hərbi doktrinaya malikdir və militarist siyasət yürütməkdə davam edir. Bonn Beynəlxalq Mərkəzinin Militarizasiya İndeksinə görə Ermənistan militarizasiya göstəricisinə görə Avropada birinci və dünyada üçüncü yerdədir. Adam başına düşən gəlirin hərbi məqsədlərə sərf edilməsi göstəricisi Ermənistanda 4.1 faizdir. Müqayisə üçün qeyd edək ki, Azərbaycanda bu göstərici 3.6 faizdir. Ermənistanın militarizasiya və silah yarışmasına sərf etdiyi etdiyi vəsait ölkənin üzləşdiyi ciddi sosial-iqtisadi problemlərin həllinə yönəldilə bilərdi.

Ermənistan xarici işlər naziri və onun müavini sözdə deyil, əməldə də sülh istəyirsə, onda Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Nə qədər tezliklə bu edilərsə, bir o qədər də tez regionda sülh təmin oluna bilər. Beləliklə, seçim Ermənistan tərəfdədir və görək onlar hansı yolu seçirlər. Azərbaycan öz ərazisinin müdafiəsi və vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün müdafiə imkanlarını artırır və artıracaqdır".

## Ən təhlükəli və təhlükəsiz ölkələrin siyahısı açıqlandı

**Dünyanın ən təhlükəli ölkələrinin yeni reytinqi açıqlanıb. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, siyahıya 163 ölkənin adı salınıb. "Institute for Economics and Peace" təşkilatının hazıladığı reytinqə görə, dünyanın ən təhlükəli ölkəsi kimi 1-ci yerdə Suriya, sonrakı 3 yerdə Əfqanıstan, Şimali Sudan və İraq gəlir.**

Bu reytinq hazılanarkən təhlükəsizlik qaydaları ilə bağlı 23 keyfiyyət göstəricisi əsas götürülüb. Azərbaycan siyahıda 132-ci yerdə göstərilib. İşğalçı Ermənistan 120-ci yeri tutur. Qonşularımızdan Rusiya bu reytinqdə 154-cü, Türkiyə 149-cu, Gürcüstan 102-ci yerdə qərarlaşıb.

Siyahıya görə, dünyanın təhlükəsiz ölkələrinin reytinqində ilk "beşlik" belədir: İslandiya. Yeni Zellandiya, Avstriya, Portuqaliya, Danimarka.

Reytinqin tərtibi üçün sosial təhlükəsizlik səviyyəsi, daxili və beynəlxalq münaqişələrin miqyası, hərbiləşdirilmə dərəcəsi, cinayətkarlığın səviyyəsi, silah idxalı və ixracı, cəmiyyətdə terror aktlarının sayı və sair nəzərə alınıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Axtarışa verilərək həbs edilən şirkət rəhbəri hakim qarşısında

**Axtarışa verildikdən sonra həbs edilən şirkət rəhbərinin məhkəməsi başlayıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən şirkət rəhbəri Babayev Elçin Yaqub oğlunun cinayət işi üzrə məhkəmə iclası başlayıb.**

Hakim Eldar Mikayılovun sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Bildirək ki, Elçin Babayev "Ulduz-S" MMC-nin rəhbəridir. O, Xətai rayonu ərazisində tikdirdiyi binadan bir mənzili birdən çox şəxsə satdığına görə axtarışa verilmiş Xətai rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdı. E.Babayev Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə ittiham edilir.

❑ **İlkin MURADOV, Musavat.com**



## Ölüm kamerasında asılmağı gözləyən İŞİD-çilər

**Britaniananın "Daily Mail" qəzetinin reportyoru İraqda, Bağdad həbsxanasında asılmağı gözləyən yüzlərlə İŞİD-çinin saxlanıldığı ölüm kamerasına baş çəkib. İlk dəfədir İraq hakimiyyəti bu həbsxanaya jurnalistin keçməsinə icazə verir. Virtualaz.org xəbər verir ki, britaniyalı jurnalist hazırda həmin kamerada 250-dən çox İŞİD üzvünün asılmaq üçün növbə gözlədiyini yazıb.**

Belələrindən biri Səddam Kərim Salemdir. O, həvəslə jurnalistə İŞİD üçün dəfələrlə necə bomba hazırladığını izah edir. Bombanın hissələrini göstərərək müstəntiqə deyir ki, bu qurğunu mobil telefonla işə salmaq olur. "Telefon zəngi gələn kimi iki saniyədən sonra bomba işə düşür" - terrorçu izah edir.

Salem deyir ki, onun hazırladığı qurğu sonuncu dəfə 20-yə yaxın adam, o cümlədən amerikalı əsgərləri öldürüb. Nəzarətçi isə düzəliş verir - ölənlərin sayı daha çox olub. 29 yaşlı Salem bu sözləri edam olunmazdan az əvvəl deyib. Ötən həftənin cümə günü onu bir qrup İŞİD terrorçusu ilə birlikdə asıblar.

Həbsxanada çoxlu sayda qadın da saxlanılır, onlar azyaşlı uşaqlarını tez-tez özlərinə sıxırlar. Cihadda ittiham olunan bu qadınların günahları sübut edilsə onları da dar ağacı gözləyir.

İki ay əvvəl bu həbsxanada Azərbaycandan olan 6 və Tacikistandan olan 4 qadın edam edilib. Bağdadın Nəsiriyyə həbsxanasında terrorçuların normal şəraitdə saxlanıldığını dünyaya göstərmək üçün İraq hakimiyyəti ilk dəfə xarici jurnalisti ora buraxıb. Həbsxana ətrafında çoxsaylı blok-postlar, snayper postları, hərbçilər yer alır. Yaxınlıqdakı aerodromda F-16 təyyarələri düzülüb.

Həbsxanada cəmi 500-ə yaxın məhbus var, onların yarısı ölüm kamerasında saxlanılır. Çünki ölüm cəzası alıblar. İraq hakimiyyəti İŞİD-in məğlub edilməsindən sonra bu terror qruplaşması ilə bağlı olan 20 minə yaxın adamı həbs edib.

Jurnalist ölüm kamerasında saxlanılan məhbusların bir neçəsi ilə söhbətləşib, onların bioqrafiyasını araşdırıb. Bunlar dəfələrlə terror aktları törədib çoxsaylı mülki sakini, hərbçiləri və polisləri öldürənlərdir. Məhbuslar arasında xarici vətəndaşlar da var.

İki gün əvvəl İraq Daxili İşlər Nazirliyi Bağdad həbsxanasında 13 İŞİD üzvünün asıldığını elan edib və onların fotolarını yayıb. İraq hakimiyyəti edam cəzalarının icrasını sürətləndirməyə çalışır. Çünki məhbusların sayı çoxdur.



## Saakaşvili Gürcüstana qayıdacağına söz verdi

**Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili bildirib ki, bu ilin payızında ölkədə keçiriləcək prezident seçkilərində iştirak etmək üçün respublikaya qayıdacaq. Bu barədə RTVi məlumat yayıb.**

"Düşünürəm ki, payızda keçiriləcək prezident seçkilərinə qədər qayıdacağam. Əminəm ki, Bidzina İvanişvili seçkilərdə məğlub olacaq. Əlbəttə, o, seçkiləri saxtalaşdıracaq. Lakin bu, onda alınmayacaq", - deyə siyasətçi telekanala verdiyi müsahibədə bildirib. Həmçinin, Saakaşvili Valeriy Gelaşvilinin döyülməsinə heç bir aidiyyətinin olmadığını bildirib.

Daha əvvəl Gürcüstan məhkəməsi qiyabi olaraq Saakaşvilini altı il müddətinə azadlıqdan məhrum edib. Belə ki, o, 2005-ci ildə deputat Valeriy Gelaşviliyə hücumda ittiham edilib.

## Ukraynada kriminal mübarizə: savaşanlar sırasında "Lotu Quli"nin də olduğu bildirilir

**Ukraynanın iri şəhərləri uğrunda kriminal mübarizə başlayıb. Musavat.com-un Ukrayna KİV-lərinə istinadən məlumatına görə, söhbət əsasən Kiyev, Xarkov və Odessadan gedir. Məlumata görə, gərginlik əsasən üç "qanuni oğru"nun klanları arasındadır.**

Bu sırada isə "Nedelya" ləqəbli ukraynalı "qanuni oğru" Andrey Nedzelski, "Lotu Quli" və Antimos Kuxilavanın adı çəkilir. Sonuncu nə Nedzelski, nə də "Lotu Quli" ilə mübarizə aparmaq gücündə deyil.

"Ona görə də, o, Taro Suxumskinin dəstəyinə ümid edir. Xüsusən də Odessaya nəzarət uğrunda mübarizədə "Lotu Quli"yə uduzan Kuxilava Taronun köməkliyi ilə mövqelərini bərpa etmək niyyətindədir", - deyə məlumatda bildirilir.

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

# Göyçayın körpü və çay dərdi: növbəti çökmənin üzə çıxardığı faktlar

## “Çınqıl mafiyası”nın viran qoyduğu Göyçay çayının məcrası nizamlanmayana qədər problem davam edəcək

**“Çınqıl mafiyası”nın qanunsuz fəaliyyəti nəticəsində iyunun 2-də uçan, 20 gün ərzində bərpa edildikdən sonra istifadəyə verilən Göyçay çayının üzərindəki körpü iyunun 30-da yenidən çöküb. Yerli sakinlərin dediyinə görə, çökmə bərpa olunmuş hissədə baş verib.**

Körpü üzərindəki çökmə müşahidə edilməyə başlayandan sonra ərazi nəzarətə götürülüb, müvəqqəti olaraq körpüdə hərəkət yasaqlanıb. Bu səbəbdən saatlarla rayon mərkəzində tıxac müşahidə olunub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və digər strukturların texnikaları əraziyə cəlb olunub, çökmə baş verən hissədə təmir-bərpa işlərinə başlanılıb.

Bir neçə saat ərzində çökən hissəyə torpaq daşınıb, sonda isə asfaltlanıb. Axşama yaxın körpü yenidən istifadəyə verilib.

Bu hadisədən sonra rayon sakinləri yenidən səksəkə içərisindədir. Nədən ki, körpü bərpa olunub istifadəyə verildikdən cəmi bir həftə sonra orada çökmə baş verməsi ərazidə yuyulma, qabarma, çökmə prosesinin dayanmadığını göstərir. Bu isə o deməkdir ki, uzun illər ərzində sabiq nazir Ziya Məmmədova, sabiq icra başçıları Mübariz Ağayevə, Ərziman Əliyevə, ATF şirkətinə məxsus daş-çınqıl karxanalarının qanunsuzluqları, normadan azı 20-30 dəfə çox xammal götürərək Göyçay çayının məcrasını tamamilə yararsız hala salmaları səbəbindən yaranmış fəlakətli vəziyyət aradan qaldırılmayınca, yeni çay əvvəlki məcrasına qaytarılmayana qədər körpü orada uzun müddət davam gətirməyəcək.

“Yeni Müsavat”ın ötən saylarında buradakı durumu və çıxış yollarını aydın şəkildə əks etdirən araşdırma yazıları dərc edilib.

Həmin - “Göyçay daha böyük fəlakətlə üz-üzə - araşdırma” (http://musavat.com/mobile/news/goycay-daha-boyuk-felaket-le-uz-uze-arasdirma_532323.html ttp://musavat.com/mobile/news/goycay-daha-boyuk-felaket-le-uz-uze-arasdirma_532323.html), “Göyçayı viran qoyan ”çınqıl mafiyası"

(http://musavat.com/news/goycayda-ki-dehsetin-baiskarlari-ziya-memmedov-selim-muslumov-ve-atf-sirketi-videolar-fotolar_531378.html ttp://musavat.com/news/goycayda-ki-dehsetin-baiskarlari-ziya-memmedov-selim-muslumov-ve-atf-sirketi-videolar-fotolar_531378.html) sərlövhəli yazılarla musavat.com saytında tanış ola bilərsiniz.







Göyçay çayının 2002-ci və 2018-ci ildə olan durumu; dərinliyin fərqi azı 20 metrdir.

Məsələ ondadır ki, hələ 5 il öncə rayon sakinləri Göyçay çayının məcrasının məhv edilməsi, daha dəqiqi çay yatağının son 15 ildə 3-4 metrdən 30-40 metrədək dərinləşdirilməsi səbəbindən evlərin, həyətyanı sahələrin, o cümlədən körpünün istinad laylarının məhv olmasını müşahidə edərək, müvafiq strukturlara müraciət ediblər. Nəticədə 2014-cü ildən həmin çayın yatağında çınqıl karxanalarının fəaliyyətinə qadağa qoyulub. Ancaq yuxarıda adları qeyd edilən məmur-oliqraxlara bağlı karxanalar çayın yatağını qazıb daşımaqda davam ediblər. Hətta bu məmur-oliqarxlara məxsus karxanalar düz körpünün altını da uzun illər ərzində qazıb daşıyıb, milyonlar qazanıblar. Bu şəxslər faktiki olaraq Göyçay sakinlərinə uzun illər əziyyət verəcək böyük bir problem yaradıblar. Faktiki olaraq sakinlər bildirir ki, Göyçay çayı ilə Yuxarı Şirvan kanalının kəsişməsindəki ötürücü tunel da yuyulub məhv olub, ora da uça bilər. Körpünün ətraflarında da yuyulma prosesi davam edir.

Əgər bu karxanalar dövlətə, Göyçaya vurduqları ziyanın qarşısının alınması üçün çayın məcrasının əvvəlki vəziyyətinə mərhələlərlə qayıtması üçün xüsusi yataq bərpası məqsədi ilə bəndlər vurmasalar, həmçinin, çaya qum-çınqıl gəlməsini əngəlləyən maneələr aradan qaldırılmasa (bu haqda yuxarıda linki verilmiş araşdırma yazısında ətraflı məlumat verilib-red.) axınının qarşısındakı maneələr aradan qalxmasa, rayonda qarşıdakı illərdə böyük fəlakətlər davam edəcək. Çayın məcrası indiki səviyyəsində qaldığı, istinad laylarını, sahələri yumaqda davam etdiyi halda körpü nə qədər möhkəm inşa edilsə də, zamanla uçub-dağılacaq. Faktiki olaraq yüksək səviyyədə bərpa edildiyi deyilən körpü cəmi 1 həftə tab gətirdi. Bu onun göstəricisidir ki, çay məcrasından çıxdığı üçün öz dağıdıcılıq işlərini davam etdirir. Bunun qarşısının alınması üçün təcili tədbirlər görülməsinə başlanılmalı olduğu ən yüksək ekspertlər tərəfindən diqqətə çatdırılıb. Həmçinin, körpünün uçması ilə bağlı başlanan cinayət işi üzrə aparılan istintaqın açıqladığı məlumat da bu deyilənlərin təsdiqidir. Həmin məlumatda da əks olunur ki, körpü məhz qım-çınqıl karxanalarının qanunsuz fəaliyyəti nəticəsində çayın məcrası pozulması səbəbindən baş verib.

Nəzərə çatdıraq ki, məlum cinayət işi üzrə 10-dək karxana, şirkət sahibi həbs olunub.

Son çökmə də göstərdi ki, məsuliyyət daşıyan şirkətlər və qurumlar bəndvurma işlərinə bir gün belə vaxt itirmədən başlamalıdırlar.

❑ **T.ƏHMƏDLİ,**
**“Yeni Müsavat”**

# “İran pulunun ucuzlaşması Azərbaycana da təsir edəcək”

## **Ekspert:** “3-4 milyon iranlı gəlib Azərbaycandan dollar almaq istəsə...”

**ABŞ-ın İrana qarşı sanksiyaları dərinləşdikcə, qonşu dövlətin iqtisadiyyatındakı problemlər artır. Yayılan məlumatlara görə, artıq Tehran bazarı bağlanıb və silsilə etirazlar müşahidə olunmaqdadır. Eyni zamanda İranın milli valyutası da ucuzlaşmaqda davam edir.**

Bütün bunların fonunda İran vətəndaşları banklardan dollar ala bilmirlər. Yayılan məlumatlara görə, İranda banklar heç bir şirkətə və ya fiziki şəxsə 10 mindən artıq dollar satmır. Bu isə əlavə problemlərə yol açır. İranın düçar olduğu problemlər, ekspertlərin fikrincə, Azərbaycana da təsirsiz ötüşməyəcək. Artıq xəbərlər yayılıb ki, İran vətəndaşları dollar almaq üçün Azərbaycandakı banklara üz tuturlar. Ekspertlərin fikrincə, bu hal Azərbaycanda dollar qıtlığının yaranmasına və manatın devalvasiyasına yol aça bilər.



Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan ekspert Natiq Cəfərli də təsdiqləyib ki, İran vətəndaşlarının Azərbaycanda daşınmaz əmlak, dollar almaları ilə bağlı xəbərlər çoxalıb: “İranla bağlı sanksiyaların gərginləşməsi və artması gündəmdədir. Yaxın zamanlarda, hətta noyabr ayından sonra İrandan neft alan ölkələrə və şirkətlərə sanksiyaların tətbiq olunması başlaya bilər. Artıq bununla bağlı Amerika tərəfindən açıqlama olub. Təbii ki, bu, getdikcə daha çox gərginləşən bir iqtisadi vəziyyətdir. Bundan sonra da hesab edirəm ki, biz, İranda daha da çətin iqtisadi halın şahidi olacağıq. Bu gün İranda baş verənlər hələ ki, ilkin addımlardır. Gələcəkdə daha kütləvi şəkildə bunun nəticələrini görə bilərik. Azərbaycan üçün də eyni hal keçərlidir. Daşınmaz əmlak bazarımızda dəyişiklik ola bilər. Yəni əgər kütləvilik artsa, İrandan gəlib Azərbaycandan mənzil almaq istəyənlərin sayı çoxalsa, bu, qiymətləri kifayət qədər yüksəldə bilər. Dollarla da bağlı vəziyyət eynidir. Yəni əgər dollara olan tələbatda kəskin artım müşahidə edilsə, çox ciddi bir problemlər ortaya çıxa bilər. 80 milyonluq əhalidən söhbət gedir. Bu əhalinin hətta 5 faizi belə Azərbaycandan gəlib valyuta almağa cəhd edərsə, bu, təqribən 3-4 milyon insan deməkdir. 3-4 milyon insanın Azərbaycandan dollar almaq cəhdi isə böyük ajiotaja səbəb ola bilər. Nəticədə isə ölkədə dollara olan tələbat kəskin şəkildə çoxalar. Mərkəzi Bank onsuz da inzibati qaydada manatın məzənnəsini sabit saxlayır. İran vətəndaşlarının qeyd etdiyimiz axını olarsa, artıq Mərkəzi Bank da inzibati qaydada manatın məzənnəsini sabit saxlamaqda çətinlik çəkə bilər. Yəni hər şey İranla bağlı vəziyyətin nə qədər gərginləşməsindən asılı olacaq. Gərginləşmə ehtimalı da təəssüf ki, çox yüksəkdir. Əgər bu sanksiyaların artım tempi sürətlə getsə və iqtisadi tənəzzül İranda daha da dərinləşsə, Azərbaycana ciddi təsirlər olacaq. Bunun müsbət təsirləri o ola bilər ki, ölkəmizdə daşınmaz əmlak bazarında aktivlik artsın, satış həcmi çoxalsın. Belə halın Azərbaycan əhalisi üçün mənfi tərəfi isə qiymətlərin artmasıdır. Digər tərəfdən dollara olan tələbatın isə ancaq mənfi tərəfləri ola bilər. Burada müsbət heç bir haldan söhbət gedə bilməz. Çünki Azərbaycanın dollar ehtiyatları ancaq neftə görə formalaşıb. İxracatçı ölkə deyilik və neftdən başqa kütləvi nə isə ixrac etmirik. Ona görə də Neft Fondunun vəsaitinin tükənməsi ehtimalı artır”.

İqtisadçı bildirib ki, İran tərəfdə nə qədər çox qadağalar olacaqsa bir o qədər də ajiotaj arta bilər: “İqtisadi vəziyyətin pis olmasının səbəbi odur ki, gözləntilər real vəziyyətdən daha da pisdir. Artıq bunun belə olacağını hər kəs bildirir. Bu da ona gətirib çıxaracaq ki, əgər İranla bağlı ABŞ-ın sanksiyaları daha da kəskinləşsə və doğrudan da noyabr ayından sonra İran neftinin alışına qadağalar qoyulsa, İranın valyuta ehtiyatları kəskin şəkildə azalacaq və rial daha çox dəyərdən düşəcək. Nəticədə bu, Azərbaycana keçib valyuta almaq istəyən insanların sayının və həcminin artmasına səbəb olacaq”.

Ekspert bildirdi ki, Azərbaycanın İran vətəndaşlarının ölkədən dollar almasına qadağa qoyması mümkün deyil: “Çünki bu, praqmatik olmayacaq. İran vətəndaşları Azərbaycan tərəfinə keçib, bizim vətəndaşların əli ilə dollar alacaqlar. Uzaqbaşı azərbaycanlılara hər min dollara 2 manat hörmət etsələr, azərbaycanlı gedib öz adından dollar alıb, iranlıya verəcək. Ona görə də bu məsələni həll etmək çətindir. Eyni zamanda Azərbaycan tərəfi iranlılara dollar almağı qadağan etsə bu, siyasi baxımdan da vəziyyəti çətinləşdirə bilər. Ancaq siyasi məsələləri kənara qoyduqda belə, praqmatik baxımdan qadağa məsələsinin işləməsi mümkün deyil”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018



# Sən ərəbdən nə gözləyirdin?

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Ərəb turist Marxaldakı hovuzu batırıb, sonra cəriməsini ödəməsəydi də, biz onların əlindən qıcıqlı idik. Niyə? Çünki gəldikləri gündən paytaxtda, bölgədə eləmədikləri əməl qalmamışdı. Özüm dəfələrlə belə xəbərləri ya oxumuşam, ya yazmışam, ya da rəy öyrənib təfərrüatlarını araşdırmışam.**

Oteldə yatağın üstündə ayaqqabı ilə gəzənindənmi danışım, otaqdakı su qızdırıcıda sosiska qaynadanındamı, yoxsa yolun ortasında ayaqyolu ehtiyacını ödəyənindənmi?

Şəhərdə sevimli hesab etdiyin kafeyə girirsən, uzun bir masada 15-20 turist. Başda oturanı, çox güman ki, hesabı ödəyəni də əda ilə şəst ilə ayağını qoyub stulun üstünə. Sanki belə olmalıymış kimi. Ofisiantlar da onların ətrafında pərvanə. "Cavan oğlan" deyib çağırırsan, baxmır. "Ay qardaş", "Dayıoğlu" deyirsən, sənə heçlik münasibəti göstərirlər. Hərəsi bir tərəfdən ərəbin masasını doldurmağa çalışır. Marketinq, turizm qaydaları, dəftər-kitab... sübut edir ki, onlar bu davranışlarında haqlıdılar. Çünki sən uzaqbaşı dəyəri 7-8 manat olan "Sezar salatı" sifariş edəcəksən, amma ərəbin masasındakılar dünyanın nemətini. Əlinə menyunu alacaq, uşaq üçün bir təam, qadınlar üçün başqa yemək... Sən olsan, sən kimə qulluq edərsən?

O gün yerli turizm şirkətlərindən birində çalışan tur bələdçisi həyatından şikayətlənirdi. Deyirdi, vaxtilə ərəb, ya da ingilis dilini orta səviyyədə öyrənsəydi, indi pula pul deməzdi. Çünki yerli turistləri apardığı turlara görə 30 manat verirlərsə, ərəb turistlərin turu 50-100 manatdır. Hələ tur zamanı o ərəblərin verdiyi bəxşişi də nəzərə alanda mənzərə lap parlaqdır. Kəsəsi, ərəb hamının üzünü güldürür: turizmçinin də, taksiçisinin də, otel sahibinin də. Maddi baxımdan təbii ki...

Amma hər gülün bir tikanı var. Ya da gülü sevən tikanına da dözməlidir. Yəni sən ərəbə bir şiş kababı 4 manata yox, 8 manata satanda o da gəlib, sənin hovuzuna .... gül qoyacaq. Sən oteldə elementar xidmətləri üçqat baha qiymətə ona sırıyanda o da gəlib, çaydanında sosiska bişirəcək. Yəni adam ərəbdir deyə, axmaq deyil. Və ya əlində dollar varsa, bunu qaz kimi yola bilməzsən. O da özünə qarşı edilən haqsızlığın əvəzini bu cür çıxır. Banal azərbaycanlı yanaşması ilə deyək: pulu yaxşıdır, hərəkəti pis? Dözəcəksən, dözməlisən...

O gün sosial şəbəkədə bir mərəkə qopmuşdu. Ərəb turistin itmiş telefonu üçün 100 manat istəyən iki taksi sürücüsünü hamı lənətlə söyürdü. Niyə ərəbdən 100 manat istəyirmişlər? Birincisi, dünyanın turizm şəhərlərində taksi sürücülərinin əsas işi turist aldatmaqdır. Heç bir sürücüdən mələklik gözləmək lazım deyil. Nyu-Yorkun mərkəzində, Manhettendə şəxsən taksi sürücüsünün hiylələrliyinə, yol uzatmasına, sayğacda rəqəmlərin sürətlə fırlanmasına görə xeyli pul ödəmişəm. Halbuki həmin məsafəni ordakı soydaşlarımızla ayaqla geri qayıdanda məlum oldu ki, cəmi iki küçəlik məsafə imiş. Nyu-York deyirəm e, sizə, Manhetten. Afinada da başıma eyni şey gəlib, Praqada da... Taksi sürücüləri heç yerdə mələk deyil. Necə ki, turistə hər şeyi 3-4 qat bahasına satan satıcı, restoran və otel sahibləri mələk deyil.

Yəni, əzizlərim, məsələyə bir neçə rakursdan baxmaq lazımdır. Ən əsası da səbəb və nəticə prizmasından. Sən ərəbə hər şeyi qızıl məcməyidə gətirirsənmi? Gətirirsən. Şəhərin göbəyində hətta qadınlar intim xidmət göstərmək üçün skamyada onların yolunu gözləyirlər. Yerli Məmməd, Əhməd restoranın mənzərəli masasında oturmaq istəyəndə, hətta müştərin olmasa da, potensial ərəb turisti gözlədiyin üçün "bura ərəb turistlər üçündür" deyirsənsə, bir zəhmət qatlanacaqsan. Natəmizliyinə də, barbarlığına da, hovuzu murdarlamasına da...

O başqa söhbətdir ki, Azərbaycana gələn ərəblərlə Avropada istirahət edən ərəb turistlər səviyyə və dünyagörüşü baxımdan fərqlənir. Bir var, ərəb şeyxi, övladı Londonda, Amerikada təhsil almış, etiket qaydalarını bilən turist, bir də var əlinə 5-10 dollar düşən kimi Bakının qapısını döyən. Görgü, mədəniyyət və davranış qaydalarını sonuncudan gözləyə bilməzsiz...

Relax olun, xanımlar və cənablar. Ya da diş məcunu reklamlarında olduğu kimi, gülümsəyin. Başqa çarəniz yoxdur...

# Yeni kəsim qaydaları əti bahalaşdıra bilər

## Qəssab: "50 qəpik-1 manat arasında artım ola bilər"

## İqtisadçı-ekspert: "Qeyri-rəsmi icazələr ətin qiymətinə təsir edəcək"

**Yaxın vaxtlarda Azərbaycan ərazisində standartlara cavab verməyən yerlərdə ət kəsimi və satışı yığışdırılacaq. Bu haqda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli məlumat verib. Onun sözlərinə görə, heyvanın daşınma qaydaları düzgün həyata keçirilməsə, onun bədənində ifraz olunan xüsusi maddələr ətin yararsızlığına səbəb olur.**

"Bu da sağlamlığa zərərlidir. Küçə və meydanlarda heç bir ekspertiza olmadan kəsim icra olunursa, bu insanların sağlamlığı üçün təhlükə mənbəyidir. Bunun qarşısını almaq üçün Bakı kəndləri və paytaxt ətrafı regionlar üzrə əhali və təsərrüfat sayına görə kəsim məntəqələri açılacaq. Kəsim yerlərinin formaları müəyyənləşdirilir. Bu məntəqələr modul tipli və ya mobil formada ola bilər. Hazırda onların standartları müəyyənləşdirilib və eskizlər çəkilib", - deyə o bildirib.

Qurum nümayəndəsi Bakıya iri və xırda buynuzlu heyvanların gətirilməsinin qadağan olunacağını da bildirib: "Paytaxtın ətraf qəsəbələrində isə ancaq iri buynuzlu müvafiq heyvanları təsərrüfatda saxlamaq üçün icazə veriləcək. Gələcəkdə qurban bayramı ərəfəsində küçələrdə ət kəsimi də olmayacaq".

Bəzi ehtimallara görə, yeni qaydalar ətin satış qiymətində artıma səbəb olacaq. Belə narahatlıq üçün əsas varmı?

10 ildən çoxdur Bakıda qəssablıq edən Cabbar kişi düşünür ki, heyvanın şəhəri gətirilməsi qadağan edildiyi halda cüzi artım gözlənilir: "Mən malı başqasından alıb, kəsib satıram. Deyirlər, ət kəsimi üçün şəhərdən kənarda kəsim məntəqələri açılacaq. Burda bir sual yaranır. Məntəqələr pullu olacaq, ya pulsuz? Pulsuz olacaqsa, ətin qiymətində qətiyyən artım ola bilməz. Yox, pullu olacaqsa, 50 qəpik - 1 manat arasında cüzi artım ola bilər. Əslində, bu artım cüzi də demək olmaz. 3 kiloda 3 manat edəcək".

Qəssab bir məqama da toxundu: "Bir məsələ də var. Məntəqələr pullu olarsa, ödəniş kim tərəfindən olunacaq? Qəssaba mal verən ödənişi edib heyvanı kəsdirib bizə satacaq, ya malı alandan sonra ödənişi biz edib kəsdirəcəyik?"

İqtisadçı Samir Əliyev isə deyir ki, belə qadağanın tətbiqi sanitariyanın qorunması və ətin keyfiyyətli olması baxımından faydalıdır: "Sovet dövründə şəhər yerlərində əti xüsusi dükandan alınırdı və alınan ətin keyfiyyəti də normal olurdu. İndiki zamanda istehlakçıların dükandan ət almaq inamı sarsılıb. Dövrü mətbuatda Bakıya at, ya eşşək əti, yaxud ölü heyvanın əti satmağa gətirənlər haqda zaman-zaman xəbərlər yayılır. Ona görə də insanlar gözünün qarşısında kəsilən heyvana etibar edirlər. Ət kəsimində yeni qaydanın tətbiqi cəmiyyətdə hansı reaksiyanı doğuracaq? Məntəqələrdə kəsilən ətin standartlara uyğun olması təmin ediləcəkmi? Bu gün bazarlarda ət baytar həkimin icazəsi ilə satılır. İnsanlar da bilir, bu icazələr hansı yollarla alınır. İcazə verən şəxs, ya qurum heyvanın üzünü belə görmür. Buna görə də insanlarda inamsızlıq var. Ayrı-ayrı yerlərdə qeyri-rəsmi icazələr olacaq. Qeyri-rəsmi icazələr də əlavə ödəniş tələb edəcək. Bu da ətin qiymətinin qalxmasına təsir edəcək".



Ekspert hesab edir ki, bu işdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin öhdəsinə ciddi məsuliyyət düşür: "Bu qurum işin öhdəsindən gələ bilsə, sovet dövründəki kimi insanların kəsilmiş halda dükana gətirilən ətə inamı artacaq. Sui-istifadə hallarına imkan versə, onda bu inamı bərpa etmək mümkün olmayacaq".

❑ Ləman MUSTAFAQIZI,
"Yeni Müsavat"

# Rusiya qazın qiymətini qaldırdı - səbəb

## İlham Şaban: "Bundan təşvişə düşmək lazım deyil"

**Rusiyanın "Qazprom" konserni iyulun 1-dən qaza olan topdansatış qiymətlərini bütün istehlakçı kateqoriyalar üçün 3,4 faiz qaldırıb. "RİA Novosti"nin xəbərinə görə, müvafiq qərar Rusiya Antiinhisar Xidməti tərəfindən qəbul edilib. Məlumata görə, 11 may tarixli əmr Ədliyyə Nazirliyində iyunun 19-da qeydə alınıb.**

Ekspert İlham Şaban bildirib ki, Rusiyada qazın qiymətlərinin qalxmasından təşvişə düşmən lazım deyil: "Sadəcə olaraq Rusiya qiymətləri qaldırmaqla öz daxili bazarlarını tənzimləyir. Rusiyanın daxili bazarında qazın topdansatış qiymətləri 1 iyul tarixindən 3.4% artıb. "Qazprom"un saytında qeyd olunurdu ki, 2017-də qazın daxili bazarda orta satış qiyməti 57 dollardan bir qədər artıq olub. Yəni hazırda artım hər min kub metr üçün təqribən 2 dollar təşkil edir. Niyə məti artırıb? Hələ 2015-ci ildən strategiya bu idi ki, qazın xarici qiymətləri ilə daxili qiymətləri arasındakı disbalansı tədricən azaldınsın. Rusiyanın daxilində qazdan çox qeyri-rasional istifadə edilir. Səbəb də onun ucuz olmasıdır. 2017-ci ildə Rusiya 210,2 mlrd m3 qaz ixrac edib, ancaq daxildəki qaz istehlakı 468 milyard kub metr olub".

Qeyd edək ki, "Qazprom"un satdığı qazın topdansatış qiymətləri Rusiya hökuməti tərəfindən tənzimlənir.

❑ Əli Rais,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018



# Qaxda Qarabağ qazisinin evini yandırıblar, özünü isə ölümlə, həbslə hədələyirlər

## Keçmiş döyüşçü və prezident təqaüdçüsündən şok açıqlamalar; **İlqar Cəlilov:** "İşıq idarəsinin müdiri hakimin yanında deyir ki, sənin ağzından atdıracağam..."

**İyulun 5-də Ali Məhkəmədə hakim Əsəd Mirzəliyevin sədrliyi ilə Qarabağ qazisi, prezident təqaüdçüsü İlqar İbrahimxəlil oğlu Cəlilovun "Azərişıq" ASC və qurumun Şimal-Qərb Enerji Regional Təhcizatı və Satışı İdarəsinin Qax Elektrik Şəbəkəsinə qarşı iddiası üzrə baxış keçiriləcək.**

Qarabağ döyüşçüsü deyir ki, qarşı tərəf onun Qax rayonu, Qaxmuğal küçəsi ev 5-də yerləşən mənzilinin kül olmasına səbəb olan səhlənkarlıq edib. Nəticədə ona 60 min manatdan artıq ziyan dəyib. Olay 2015-ci il martın 3-də, səhər 10 radələrində baş verib. Həmin gün İlqar Cəlilovun və digər 6 qonşunun mənzilində qəfildən yanğın baş verib. Evdə olan qonşular yanğının qarşısını ala biliblər. İlqar Cəlilov isə həmin vaxt iş yerində olub, ailə üzvləri də evdə olmayıblar. Yanğın vaxtında söndürülmədiyindən 4 otaqlı ev və həyətdəki qaraj yanaraq kül olub. Hadisədən sonra İlqar Cəlilov öyrənib ki, qonşularında bütün elektrik cihazları partlayıb, yanıb sıradan çıxıb. Evdə olan qonşular elektrik naqillərində baş verən yanğını söndürüblər.

İlqar Cəlilov hadisə baş verəndən sonra Bakıya gələrək fövqəladə hallar nazirinin qəbuluna düşüb. Hadisənin elektrik naqillərində gərginliyin normadan dəfələrlə artıq verilməsindən şübhələndiyini söyləyib. Ərizəsində yazıb ki, eyni zamanda 7 evdə yanğının başqa səbəbdən olmasına inanmır.

**Nasaz transformatorlarda gərginlik dəfələrlə artıb, 7 evdə yanğın başlayıb**

Şikayətçi deyir: "Qayıdıb rayona getdim. 2 gün sonra Fövqəladə Hallar Nazirliyinin Əməliyyat İstintaq İdarəsindən və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin ekspertləri Qaxa ezam olundular. Gəlib araşdırdılar, böyük bir cinayətin üstü açıldı. Araşdırmalar transformatorlara baxış keçirməklə başladılar. Məlum oldu ki, məhləmizi qidalandıran transformatorlar pis gündədir. Rəsmi sənədlərdə həmin transformatorların yeni olduğu göstərilsə də, faktiki orada sovetdən qalma trasformatorlardır. Transformatorlarda yağ vaxtında dəyişmədiyindən nasazlıq yaranıb və gərginlik dəfələrlə artıb. Odur ki, evlərdəki elektrik naqillərində yanğın baş verib. Yəni böyük yeyintiyə görə bu hadisə baş verib. Təxminən bir neçə 100 min manatlıq yeyintinin olması haqda iddialar vardı. Fövqəladə Hallar Nazirliyi gəldiyi nəticə haqda Baş Prokurorluğa rəsmi məktub göndərildi. Baş Prokurorluqda Cinayət Məcəlləsinin 314.2 - səhlənkarlıq - maddəsi ilə cinayət işi başlandı və Qax Rayon Prokurorluğuna göndərdilər, məni Qax Prokurorluğuna dəvət etdilər. Rayon prokuroru İslam Qasımov, köməkçisi Nazim Bağırov qabağıma 10 min manat qoyub dedilər ki, götür, sənə dəyən ziyanın ödənilməsi haqda ərizəyə qol çək. Dedim ki, 10 min manata ev tikmək olmaz. Pulu götürmədim, prokurorun yazdığı ərizəyə də qol çəkmədim".





İş № 2(033)-1549/2017

Surət

Azərbaycan Respublikasının adından

Qətnamə

23 oktyabr 2017-ci il

Zaqatala şəhəri

Zaqatala Rayon Məhkəməsi

Zaqatala Rayon Məhkəməsinin hakimi İsmayılov Arif Allahqulu oğlunun sədrliyi, məhkəmə iclasının katibi Allahverdiyev Şahid Allahverdi oğlunun və iddiaçının iştirakı ilə, iddiaçı Cəlilov İlqar İbrahimxəlil oğlunun cavabdehlər "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Şimal-Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinin Qax Elektrik Şəbəkəsinə qarşı ona və ailəsinə dəymiş maddi və mənəvi zərərin əvəzinin ödənilməsi tələbinə dair iddia ərizəsi üzrə mülki işə məhkəmənin binasında açıq məhkəmə baxışı iclasında baxaraq,

müəyyən etdi:

İddiaçı Cəlilov İlqar İbrahimxəlil oğlu cavabdeh "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Şimal-Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinin Qax Elektrik Şəbəkəsinə (bundan sonra - Qax Elektrik Şəbəkəsi) qarşı ona və ailəsinə dəymiş maddi və mənəvi zərərin əvəzinin ödənilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən vurulmuş maddi və mənəvi zərərin əvəzi olan 100.000 (bir yüz min) manatın alınıb ona verilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddiaçı tələbini onunla əsaslandırmışdır ki, 03 mart 2015-ci il tarixdə təxminən saat 10 radələrində ona məxsus Qax şəhəri Qaxmuğal küçəsi ev 5-də güclü yanğın hadisəsi baş vermişdir. Yanğın hadisəsi zamanı onun 3 otaqlı mənzili, 1 aynəbənd, mətbəx, avtomobil qarajı, talvar və evin içərisindəki əmlak yanaraq kül olmuşdur. Ona dəymiş ziyandan başqa 7 qonşuya da ziyan dəymişdir. O, əmin olmuşdur ki, yanğın hadisəsi onların səhlənkarlığından baş verməmişdir. Ona görə də Bakı şəhərinə gedərək, Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri cənab Kəmalləddin Heydərovun qəbulunda olmuşdur. Onun müraciəti əsasında cənab nazir Kəmalləddin Heydərovun göstərişi ilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (bundan sonra- Azərbaycan Respublikasının FHN) Əməliyyat İstintaq İdarəsinin əməkdaşları və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin ekspertləri Qax rayonuna gələrək, onun evinin yanması səbəblərini araşdırmış və onun evinin yanma səbəbinin Qax Elektrik Şəbəkəsinin vəzifəli şəxslərinin səhlənkarlığından baş verməsi məlum olmuşdur. Araşdırmalar zamanı aydın olmuşdur ki, transformatorların sənədlə təzə və saz vəziyyətdə olması göstərilsə də, reallıqda onlar bərbad vəziyyətdədir. Transformatorların heç birində qoruyucu olmamış, qoruyucu əvəzinə alüminiumdan olan sim, ya da 12 mm-lik armatur bağlamışlar. Araşdırma zamanı həm də məlum olmuşdur ki, transformatorlara görə ayrılan pullar Qax Elektrik Şəbəkəsinin və Zonalararası İşıq İdarəsinin rəhbəri olmuş İlham Hüseynov tərəfindən mənimsənilmişdir. Ekspertlərin rəyi əsasında Qax Elektrik Şəbəkəsinin vəzifəli şəxsləri Elşad Əlimov və Xəlil Bayramov barəsində cinayət işi başlanmışdır. Təəssüflər olsun ki, cinayətkar və rüşvətxor İlham Hüseynov Qax rayon prokuroru İslam Qasımova verdiyi rüşvət nəticəsində kənarda qalmışdır. Respublikanın iki nazirliyinin onun xeyrinə verdiyi qərara baxmayaraq, onun barəsində Qax Rayon Prokurorluğunda cinayət işi başlanmışdır. Prokurorun təzyiqi nəticəsində şahidlərin bəzilərinin izahatları dəyişdirilmiş və ona evinin guya özü tərəfindən yandırıldığı deyilmişdir. Bunu eşidəndə o, ağır vəziyyətə düşmüş və güclü əsəb sarsıntısı keçirmişdir. Bir çox əziyyətlərdən sonra Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın qəbulunda olmuş. Birinci xanım Mehriban Əliyeva onu diqqətlə dinlədikdən sonra işi öz nəzarətinə götürdüyünü və işə tam düzgünlüklə baxılacağını bildirmişdir. Çox hörmətli Mehriban xanımın göstərişi ilə o, Respublikanın Baş Prokuroru cənab Zakir Qaralovun qəbulunda olmuşdur. Baş Prokuror cənab Zakir Qaralovun qəbulunda olduqdan bir neçə gün keçəndən sonra

**Prokuror böyük bağlamadakı narkotiki qabağıma qoydu**

Qarabağda sağlamlığını itirmiş İlqar Cəlilovun sözlərinə görə, prokuror ondan əl çəkməyib: "Prokurorun mənə təklif etdiyi pulu ona zonalar arası işıq idarəsinin müdiri İlham Hüseynov vermişdi. Çünki İlham Hüseynovla prokurorla görüşdən əvvəl mübahisəm olmuşdu. O, FHN-ə müraciət etdiyim və müraciətim əsasında Qaxa komissiya gəldiyi üçün məni təhdid etmişdi. İlham Hüseynov 11 rayonun rəisi idi. Ona da demişdim ki, evimi tikin verin, mən başqa heç nə istəmirəm. 2 gün sonra prokurorla köməkçisi yenidən məni dəvət etdilər. Stolun üstündə həmin ərizə və böyük bir bağlama vardı. Prokuror və köməkçisi dedi ki, ərizəyə qol çəkməsən, bağlamadakı narkotikin sənə məxsus olması haqda protokol tərtib olunacaq, barəndə cinayət işi başlanacaq. Prokurorun köməkçisi üstümə hücum çəkdi, əlimi zorla həmin bağlamaya vurmaq istədi. Amma bacarmadı. İstəyi bu idi ki, bağlamada əl izlərim qalsın və həmin bağlamanın mənə məxsusluğunu sübut etsinlər. Gördülər ki, bu da alınmır, ortada FHN-in rəyi ola-ola, evimin özüm tərəfindən qəsdən yandırıldığını deyib barəmdə Cinayət Məcəlləsinin 186.2-ci maddəsi ilə cinayət işi başladılar".

**"Qara Hətəm"i baş prokurorun qəbuluna salıblar ki...**

Qarabağ qazisi deyir ki, üzləşdiyi prokuror təhdidi məsələyə 1-ci vitse-prezident qarışdıqdan sonra səngiyib: "Mehriban xanım Əliyevanın qəbuluna düşdüm. Baş verənləri danışdım. 1 sutka sonra Qəbələdə baş prokuror Zakir Qaralov məni dəvət etdi, Qax prokuroru İslam Qasımov və başqa şəxs də vardı. Sonradan bildim ki, digər şəxs İlham Hüseynovun yeznəsi Hətəmdir. Qaxda onu hamı "Qara Hətəm" kimi tanıyır. Onu baş prokurorun qəbuluna kim və necə salmışdı sonra bildim. Aydın oldu ki, onu mənimlə eyni vaxtda qəbula Qax prokuroru saldırıb. Qəbulda baş prokuror məni dinlədi, prokuroru danladı. Barmağı ilə prokurorun şişman qarnına vurub danlayırdı. Sentyabrın 9-da Eminov soyadlı prokuror zəng edib Baş Prokurorluğa çağırdı. Səhəri gün Baş Prokurorluqda Rüstəm Usubov qəbul etdi. 3 saat yarım məni 11 general dindirdi və barəmdəki cinayət işi ləğv olundu. İşıq İdarəsinin vəzifələrinə qarşı cinayət işi başladılar. Elektrik şəbəkəsinin vəzifəli şəxsləri Elşad İdris oğlu Əlimovu və Xəlil Nəzir oğlu Bayramovu cəlb etdilər. İlham Hüseynov kənarda qaldı".



İlqar Cəlilovun sözlərinə görə, iş araşdırılıb Qax rayon məhkəməsinə göndərilib. 1 neçə ay davam edən proses boyu qarşı tərəf 3 dəfə vəsatət verib, ekspertiza təyin olunub: "Hər 3 ekspertiza rəyi də FHN-in verdiyi qərarı təsdiqlədi. Hakim Atabəy Kiçibəyov vurnuxurdu ki, qərar qarşı tərəfin xeyrinə olsun. Ataxan Kiçibəyov da məni 2 dəfə kabinetinə çağırıb pul təklif etdi. Ona da dedim ki, evimi tikin verin, mən elektrik şəbəkəsi rəhbərliyinin məsuliyyətsizliyi ucbatından evimi itirmişəm. Razı olmadıdlar. Qarşı tərəfin vəkili Qardaşxan Sadıxov məhkəmədə mənə yaxınlaşıb 30 min təklif etdi. Ona dedim ki, mənə dəyən ziyan hesablanıb və 61 min 886 manatdır, həmin ziyanı ödəyin, məsələ bitsin. Evimdə yanğın zamanı 6 min manat pulum yanmışdı. Onun davasını aparmadığımı dedim. Məhkəmə zalında hakimə dedim ki, evimi tikib versinlər, mən Qarabağ əliliyəm, aldığım pensiya ilə ailəmə ev tikə bilmərəm. Qardaşxan Sadıxov Qarabağ veteranlarının və şəhid ailələrinin ünvanına təhqiramiz ifadə işlətdi. Hakim də onun tərəfini tutdu. Aramızda mübahisə düşdü. Qardaşxan Sadıxov ölkə rəhbərliyinin ünvanına xoş olmayan sözlər işlətdi, prosesi pozmağa çalışdı. Amma alınmadı. Məhkəmə xeyrimə qərar çıxardı.

Evimi yandıran odur!

Həmin qərarı Ali Məhkəməyə qədər mübahisələndirdilər. Amma məhkəmə qərarı qüvvədə saxladı. Buna baxmayaraq mənə yanğın zamanı evimin yanmasına görə dəyən 61 min 886 manatı 3 ildir ödəmirlər. İlham Hüseynov Qaxda gəzib dolaşır. Mənim evimi yandıran odur! Əgər onun mənim evimin yandırılmasında günahı yoxdursa, baş prokurorun qəbuluna niyə yeznəsi "Qara Hətəmi" salırdılar? Mən 1-ci vitse prezidentdən xahiş edirəm, bu məsələni nəzarətə götürsün. İlham Hüseynov bu gün Qəbələdə elektrik şəbəkəsində satış şöbəsinin rəisidir. Barəsində xüsusi ittiham qaydasında cinayət işi başlanmasını tələb etmişəm. Qax Rayon Məhkəməsinin hakimi iclas zalında İlham Hüseynova çox loyal idi. İlham Hüseynov məhkəmə zalında, hakimin yanında iclas getdiyi bir vaxtda deyir ki, sənin ağzından atdıracağam. Sənin canın çıxacaq, mənim pulum. Sinəsinə vurub gəzir ki, bu günə qədər 300 min pul xərcləmişəm, 300 min də xərcləyəcəyəm, evini tikib verməyəcəyəm. Niyə belə etdiklərini soruşdum. Deyirlər ki, sənə ev tikib versək, camaat belə hadisələr olanda iddia qaldıracaq. Ona görə də pulunu verməyəcəyik, evini də tikməyəcəyik. İlham Hüseynov məni həbslə hədələyir. Deyir ki, həbs etdirəcəyəm. Bu adam ölkə rəhbərliyini söyməkdən, təhqir etməkdən də çəkinmir. Məhkəmələr də onun vəkili kimi çıxış edirlər. Sanki mən gedib bunların evlərini yandırmışam. Ölkə rəhbərliyinə xahiş edirəm ki, İlham Hüseynovun özbaşınalığına son qoyulsun, mənə dəyən ziyanın ödənilməsi üçün tədbirlər görülsün".

Qarşı tərəfi də dinləməyə hazırıq.

**E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Futbol - tək adamın işi deyil!

Samir SARI

**Ta hamı dincələr: Messi də uduzdu, getdi, Ronaldo da. Özləri də uduzdular, komandaları da. Futbol tarixinin iki ən güclü, ən istedadlı futbolçusu bu dəfə də dünya çempionu titulu qazana bilmədilər. Bəlkə heç sonra da qazana bilməyəcəklər, çünki yaşları çatmayacaq. Ağlımız eşq-məhəbbətə getməsin, futbolda yaşın fərqi var.**

Beləcə, yenə də "futbol kralı" tacı Peledə, vitse-kral statusu Maradonada qalacaq.

Hərçənd ikinci eyzən orda-burda, hər yerdə deyir ki, o futbolda Peledən üstündür və haqlı görünür, amma statistika deyilən bir şey var. Pele 3 dəfə dünya çempionu olub, Maradona - bir dəfə.

Ronaldo və Messi isə dünya çempionu olmayıblar. Ola bilməyiblər. Çünki təkbaşına dünya çempionu olmaq mümkün deyil, gərək üzvü olduğun komanda dünya çempionu oldun ki, sən də olasan.

Ona qalsa, dünya çempionu olan komandaların heyətində elə oyunçular var ki, bütün mundial boyu cəmi bircə dəfə oynayıblar, o da oyunun 90-cı dəqiqəsində meydançaya giriblər. Hesabda irəlidə olan komandanın məşqçisi vaxt udmaq məqsədi güdərək onları meydançaya buraxıb, onlar da 2-3 dəqiqə ora-bura qaçıblar. İndi arabanın beşinci təkəri olan həmin futbolçular şəstlə özlərinə dünya çempionu deyirlər, amma Messi və Ronaldo bu imkandan məhrumdurlar.

Belə baxanda ədalətsizlikdir. Amma məntiq də var və ondan ibarətdir ki, bir futbolçu nə qədər istedadlı olsa da, ağzıyla quş tutsa da, futbol komanda oyunudur, bu idman növündə bütün heyəti güclü olanlar qalib gəlir.

Maradonanı demirəm, Pele indi 25 yaşlı cavan olsa və öz köhnə, bildiyi stillə oynamaqda davam etsə, indiki müdafiəçilər imkan verməzlər ki, onun ayağına top dəysin. O, vərdiş elədiyi kimi ləngərləyə-ləngərləyə oynayana qədər topu ayağından alarlar. Pol Poqba kimi bir şey olar Pele. Şöhrəti var, qiyməti var, amma ortada oyunu yoxdur, ora-bura qaçır, arada topa-zada girdiyi də olur, amma oyununda emosiya çatışmır.

Ronaldo və Messi isə başqadır. Müasir futbolun yaraşığıdır. Düz deyirlər ki, ikisi də klub oyunçusudur, milli komanda oyunçuları deyil. Bir komanda ki, bir ayın içində ordan-burdan yığılıb qurula, ondan nə gözləmək olar, bir dəqiqənin içində bir-birilə mübahisə edib dalaşacaqlar.

Yeri gəlmişkən, deyəsən, mən bu dünyada nadir azarkeşlərdənəm ki, Messi və Ronaldonunun ikisini də eyni zamanda böyük futbolçu olduğunu qəbul edirəm. Əksəriyyət ya Messini göyə qaldırıb, Ronaldonu yerə vurur, ya da Ronaldonu Everestin başına qaldırır, Messini Mariana çökəkliyinin dibinə soxur.

Bu da azarkeşlərin ədalətsizliyinin göstəricisidir. İkisi də əla oynayır axı. İkisi də güclü futbolçudur. İkisinin də yaxşı statistikası, titulları, çempionluqları, kubokları, "qızıl butsı"ları, ən ümdəsi, oynadıqları əla oyunların videoyazısı, vurduqları fantastik qolların videofraqmentləri var. Necə danmaq olar?

Görünür, bütün işləri zibilləyən o "futbol kralı" söhbətidir. Bunu kim icad edib ortaya atıbsa futbola pislik edib. Yox, biri futbol kralıdır, yerdə qalan futbolçular da onun nökərləridir? Bu, nə kastalaşma, zümrələşmədir? Parlaq futbolçular var, kölgədə qalan zəhmətkeş futbolçular var. Hələ bir baxaq görək, parlaq futbolçuların parlaması üçün onlara kölgədən nə qədər məhsuldar ötürmələr verilib. Halbuki adam özü də vura bilərdi, vurmayıb, ötürüb ki, messilər, ronaldolar, pelelər, maradonalar, kroyflar vursun.

Bir də bəlli bir həqiqət də var. Hazırkı mundialın ən parlaq oyunçularını bir komandaya toplasaq (çempionatdan sonra adətən simvolik komanda tərtib edilir) və onları mundialın ortabab milli komandalarının biriylə oynatsaq, "parlaqlar" mütləq uduzacaqlar. Niyə? Çünki ortada məşqçi işi, koordinasiya, anlaşma yoxdur.

Başqa sözlə, futbolda heç də həmişə ən güclü heyətə, parlaq oyunçulara malik komandalar qalib gəlmir, bir-birini bir jetsdən, yarım sözdən anlayan, toparlanan, monolitləşən, əzmkar komandalar qalib gəlir.

Messi və Ronaldo bu səbəbdən mundialdan yarımçıq getdilər. Komandaları komanda ola bilmədi.

**2018-ci ilin birinci yarısı başa çatdı. Ötən 6 ay ərzində Azərbaycanın milli valyutası olan manatın məzənnəsində dəyişiklik nəzərə çarpmadı. ABŞ-ın Federal Ehtiyatlar Sistemi dolların uçot dərəcəsində dəyişiklik etsə də, manatın dollara nisbətdə olan məzənnəsi 1.70 AZN olaraq qaldı. Eyni zamanda, ötən 6 ay ərzində dünya bazarında neftin qiymətində artım baş verdi. Bu isə neft ixracatçısı olan ölkə kimi Azərbaycan iqtisadiyyatı üçün müsbət amil kimi xarakterizə olundu.**



# İlin 6 ayı geridə qaldı: iqtisadiyyatımızda nələr dəyişdi?

**İqtisadçı-ekspert:** "Nəticə müsbət olsa da, bəzi məqamlar hökuməti bir daha ciddi düşünməyə vadar etməlidir..."

Sadaladığımız bu iki əsas amil ölkədə demək olar ki, hər kəsə məlumdur. Bəs 6 ay ərzində iqtisadiyyatımızda fərqinə varmadığımız başqa nələr baş verdi?

"Yeni Müsavat"a danışan iqtisadçı alim Fikrət Yusifov bildirdi ki, bundan öncəki dövrlə müqayisə etsək, deyə bilərik ki, 6 ayın rəsmi nəticələri pozitiv olacaq: "Doğrudur, ümumi iqtisadiyyatın artımı bir o qədər də böyük deyil. Qeyri-neft sektorunda ötən illə müqayisədə daha çox artım qeydə alınır. Xüsusilə də qeyri-neft sektorunun iki sahəsində - qeyri-neft sənayesi və aqrar sektorda artım templəri heç də pis deyil. Ancaq ümumilikdə 6 ayın yekunları onu göstərir ki, qeyri-neft sektorunda ixracımızın səviyyəsində əsaslı dönüş yaranmayıb. Bu hal isə bizi bir qədər rahatsız edən haldır. Düşünməliyik ki, nə üçün qeyri-neft sektorundan ixracımızın həcmində artım baş vermir. Artım templəri demək olar ki, 2015-ci ilin sonlarından qeyri-neft sektorunun sürətli inkişafını təmin edəcək qəbul edilmiş qərarlara bir o qədər də adekvat deyil. Yəni bu qərarlar ilk öncə real sektorun daha sürətli artımını nəzərdə tuturdu və tutur. Ancaq baxırıq ki, bütün bunların müqabilində artım templəri bir o qədər də böyük deyil. Eyni zamanda ixracda da durğunluq görürük. Bütün bu məqamlar hökuməti bir daha düşünməyə vadar etməlidir. Hökumət bunun üzərində təhlil aparmalıdır ki, nə üçün qərarlar, strateji yol xəritələri və digər real sektorun daha sürətli inkişafına hesablanmış məsələlər öz lazımı effektini tam şəkildə vermir. Ümumilikdə isə iqtisadiyyatımızda artım var. Belə ki, bəllidir ki, dünya bazarında neftin qiyməti 1 barel üçün 80 dollar civarındadır. Eyni zamanda manatın da məzənnəsində sabitlik hökm sürür. Belə bir vəziyyətdə, yeni neftin qiymətlərinin hazırkı səviyyəsində manatın hələ bundan sonrakı dönəmdə də sabit qalacağı gözlənilir. Hesab edirəm ki, neftin qiymətlərinin bu qədər həddə qədər qalxması bizə imkan verir ki, büdcəyə yenidən baxaq. Çünki büdcədə neftin qiyməti 45 dollar götürülüb. Hazırda yaxşı olar ki, bu hədd 55 dollara qədər qaldırılsın və büdcənin xərcləri artırılsın. Bütün bunların hamısı pozitivdir. Ancaq pozitiv olmayan bir cəhət var ki, o da qeyri-neft sektorunun inkişaf templəridir. Düşünürəm ki, iqtisadiyyatımızın neftdən asılılığını qurtarmaq, bunu optimal səviyyəyə endirmək üçün artım templəri 8-10 bəlkə də 12 faiz olmalıdır. Əsas gözləntilərimiz bundan ibarətdir ki, qeyd etdiyimiz rəqəmləri görək".



Fikrət Yusifov

İqtisadçının sözlərinə görə, bundan sonrakı dönəmdə əsas səylər artım templərinə yönəlmədilir: "Qeyri-neft sektorunun əsas sahələrindən biri olan qeyri-neft sənayesində artım templəri yuxarıda göstərdiyimiz səviyyəyə uyğundur. Ancaq lazımdır ki, bütün sahələrdə bu cür artım templəri baş versin. Hazırkı duruma görə, 6 aylıq nəticələri müsbət hesab etmək olar. Sadəcə olaraq, istək və gözləntilər daha böyükdür. Neftin dünya bazarında bundan sonrakı qiymətlərinə gəlincə isə deyim ki, ümumiyyətlə, neftin qiymətinin bu səviyyəyə gəlib çatmasında siyasi amillərin rolu daha çoxdur, nəyinki, iqtisadi amillərin. Ona görə də hesab edirəm ki, hazırkı qiymətlərə bir o qədər də güvənmək də düzgün deyil. Ona görə də tək çıxış yolu real sektorun sürətli inkişafını təmin edib, bu sektordan ixracın həcmini, heç olmasa bugünkü idxalımızın yarısı qədərə çatdırmalıyıq. Belə olarsa, vəziyyət optimallaşar və neftin qiymətinin dünya bazarında dəyişməsindən asılı olmayaraq, özümüzü rahat hiss edərik".

İqtisadçı manatın məzənnəsi ilə bağlı aşağıdakıları bildirdi: "Neftin qiymətləri bu səviyyədə, hətta 50 dollara qədər ucuzlaşarsa, manatın məzənnəsində elə böyük təhlükə görmürəm. Ancaq təbii ki, neftin qiyməti büdcədə nəzərdə tutulan həddən aşağı düşərsə, artıq müəyyən qədər narahatlıq yaranmağa başlayacaq. Bütün söhbətlərimizin hamısının məğzi ona görə də birdir ki, neftdən asılılıq optimallaşmalıdır. Neftə güvən çox azdır. Biz gördük ki, 2015-ci ildə neftin qiymətləri hansı sürətlə aşağı düşdü. Tarixdə bu cür hallar dəfələrlə baş verib. Kəskin artım və azalma müxtəlif amillərin təsirində baş verib. Bunlar sırasında iqtisadi və siyasi amillər var. Qeyri-neft sektorundan ixracı artıra bilsək, manata da təhlükə olmaz və neftdən asılı olmayaraq, manatın məzənnəsi sabit qalar".

❑ **Əli Rais,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

# “Fermer soğanın kisəsini 3 manata satır, bunu Allah da qəbul eləməz”

## Qüdrət Həsənquliyev: “Bəzən təbiət etibarilə hökumətin ən qorxaq üzvü deputatlara münasibətdə şir kimi çıxış edir”

**“Baxış bucağı”**

**Milli Məclisin növbədənkənar sessiyasının sonuncu iclasında bir sıra vacib məsələlər, o cümlədən büdcə ilə bağlı qanun layihəsi qəbul edildi. Deputat, BAXCP sədri Qüdrət Həsənquliyev iclasda çıxış üçün təkid edənlərdən oldu, amma qanun layihələrinin çoxluğunu əsas gətirən sədarət çıxışa imkan yaratmadı. Maraqlıdır, partiya sədri nələrdən bəhs etmək istəyirmiş? Gündəmin aktual məsələlərindən bəhs edən söhbətimizdə bu barədə də danışdıq. Qüdrət bəyin qeyri-neft sektoru ilə bağlı çox maraqlı təklifləri varmış, onları qəzetimizə açıqladı.**

*- Qüdrət bəy, parlamentin fəaliyyətini millət vəkili olaraq necə dəyərləndirirsiniz?*

- Parlamentin üzvü olaraq insanlarımızı narahat edən bir çox problemlərlə bağlı məsələ qaldırırıq, hökumətin diqqətinə çatdırırıq, bəzi problemləri qabardırıq, təkliflər veririk. Yəni parlament yalnız qanunvericilik fəaliyyəti ilə məşğul deyil. O baxımdan hesab edirəm ki, kafi qiymətləndirmək olar. Xarakter etibari ilə maksimalist olmasam da, həmişə çalışmışam ki, daha çox nələrsə edilsin, daha çox şeylər də etmək olar. Onu da qəbul edirəm ki, bir çox məsələlər var, onlar birbaşa xalqımızın inkişaf səviyyəsinə bağlıdır, cəmiyyətin inkişafı ilə əlaqədardır. Yəni burada artıq hansısa siyasi qüvvənin apardığı islahatların rolundan çox, xalqın inkişaf səviyyəsi önəmli rol oynayır. Yəni bu xalq iqtidarı formalaşdırır, iqtidar da o xalq üçün hansısa addımlar atır, qərarlar qəbul edir. Bunlar bir-biri ilə üzvü surətdə bağlıdır. Necə deyərlər, hər bir xalq öz iqtidarına, hər bir iqtidar da öz xalqına layiqdir.

*- Cəmiyyətdə parlamentə qarşı qıcıqlı münasibət hər zaman müşahidə olunmaqdadır, xüsusilə də son illərdə. Əksəriyyət hesab edir ki, deputatlar onların problemlərini görməzdən gəlirlər. Bu, nədən irəli gəlir, deputatların sözünü eşidən yoxdur, parlamentin səlahiyyətləri azdır, ya başqa səbəb var?*

- Azərbaycan prezidentli respublikadır və prezidentli respublikalar üçün də xarakterik hal ondan ibarətdir ki, dövlət başçısı daha geniş səlahiyyətlərə malik olur, həm də hökumətin rəhbəri kimi. Bir çox hallarda da onun nüfuzu hakimiyyətin digər qanadlarını əzir. Qanunverici orqanı da, məhkəmə hakimiyyətini də. Yəni bu, tək bizim üçün xarakterik hal deyil, bu tipli ölkələr üçün xarakterikdir. Ona görə də mən həmişə o təkliflə çıxış edirəm ki, biz nə qədər Qərb standartlarına uyğun demokratik cəmiyyət qura bilməmişik, Azərbaycan parlamentli respublika modelinə keçid eləsə, bu, ölkədə bir çox yeni ənənələrin yaranmasına, formalaşmasına xidmət etmiş olar. Parlamentli respublika modelinə keçsək, sizi əmin edirəm ki, hakimiyyət bölgüsü real məzmun kəsb edəcək. Bir çox hallarda əlbəttə, bizim qaldırdığımız məsələlərin öz həllini tapmamasının səbəbi, yaxud parlamentdə səslənən məsələlərə hökumət üzvlərinin bəzən həddindən artıq əsəbi reaksiya verməsi, tutaq ki, deputat kimdir hansısa problemdən danışır, yaxud hansısa problemi qabardır... Bunlar artıq fərqindədir ki, parlament onlar haqqında tədbir görə bilməz. Onu hiss etdikləri üçün bəzən görürsən təbiət etibarilə hökumətin ən qorxaq üzvü deputatlara münasibətdə şir kimi çıxış edir.



**“Yeni təyin olunanlar qanun layihələri hazırlamaqla islahatlar aparmaq gücündə deyilsə, heç bir dəyişiklik olmayacaq”**

*- İclasların birində spiker Oqtay Əsədov da hökumət üzvlərinə məhz belə münasibətlərinə görə təpindi. Deputatların telefonlarının qaldırılmaması da artıq adi hala çevrilib.*

- Bəli. Bunun səbəblərini söylədim və mövzunun üzərində çox dayanmaq istəmirəm. Səbəbi odur ki, sözün doğrusu, parlamentdən çəkinmirlər.

*- Qardaş Türkiyədə də prezident üsul-idarəçiliyinə keçildi. Bundan sonra Azərbaycanın parlamentli respublikaya keçməsi real görünürmü?*

-Hazırda İlham Əliyev 7 il müddətinə prezident seçilib və bu müddət ərzində o, dövləti idarə edəcək. Söhbət mənim arzu-istəklərimdən və cəmiyyətin bunu nə dərəcədə qəbul edəcəyindən gedir. Hər halda bu, bizim partiyanın məsələlərə yanaşmasıdır. Mən çox istərdim ki, Azərbaycanda doğrudan da yuxarıdan islahatlar yolu ilə biz parlamentli respublika modelinə keçək. İlk mərhələdə növbəti parlament seçkilərini proporsional seçki sistemi əsasında keçirmək olar. Sonra konstitusiyaya dəyişiklik edib 2025-ci ildən parlamentli respublikaya keçə bilərik. İndi Cənubi Qafqazın digər iki respublikası da artıq parlamentli respublika modelinə keçib. Ukraynada qarışıq model idi, indi onlar da tam parlamentli respublika modelinə keçmək istəyirlər. Bu baxımdan Azərbaycan üçün də keçmiş sovet respublikası kimi, parlamentli respublikaya keçid daha məqsədəuyğundur. Türkiyə bizə qardaş ölkədir, bizim onların daxili işlərinə müdaxilə etməyimiz doğru deyil. Bilirsiniz ki, Türkiyə Suriyada müharibə aparır. Türkiyə xalqı indiki mərhələdə prezidentli respublika modelini məqbul saydı. Amma ola bilsin ki, bir müddətdən sonra Türkiyə yenidən parlamentli respublika modelinə qayıtsın. Dünya təcrübəsinə baxsaq, demokratik ölkələrin 99,99 faizi parlamentli respublikadır. ABŞ istisna olmaqla. Fransada da hökuməti parlament seçkilərində qalib gəlmiş partiya formalaşdırır, baxmayaraq ki, prezidentli respublikadır. Qərbi Avropa ölkələrinin də hamısı parlamentli respublikadır. Demokratiya da Qərbdən, Qərbi Avropadan yayılıb. 100 il qabaq elə biz də parlamentli respublika qurmuşduq.

*- Yeri gəlmişkən, növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə iddialar hələ də tam aradan qalxmayıb. Belə bir gözləntiniz varmı?*

- Bir gün öncə bizim keçmiş deputatlardan biri mənə dedi ki, guya Avropa Birliyi ilə Azərbaycan arasında payızda növbədənkənar seçkilərin keçirilməsi barədə razılaşma var. Amma mən bu fikri ciddi qəbul etmirəm. Hansı vəziyyət diktə edir ki, Azərbaycan növbədənkənar parlament seçkilərinə getsin? Yazda prezident seçkiləri keçirilib, hazırkı parlamentin fəaliyyətinin başa çatmasına isə iki il var. Belə bir halda növbədənkənar seçki keçirilməsinə nə ehtiyac var? Əgər xüsusilə vacib insanlar varsa ki, onlar parlamentə gəlməlidir, onda da 6 boş yer var, payızda həmin boş yerlərə seçki keçirilə və onlar ora seçilə bilər.

*- Az yer deyil. Elə isə niyə seçki keçirilmir?*

- Konstitusiya da tələb edir ki, seçki keçirilməlidir. Seçkinin keçirilməsi konstitusion tələbdir, amma indi hökumət seçkini keçirmirsə... Konstitusiyanı müdafiə edəcək başqa bir qurum yoxdur ki, iqtidarı məcbur etsin ki, sən konstitusiyaya əməl elə və 6 yerə seçki keçir!

*- Hökumətdən danışmışkən, artıq Baş nazirin rəhbərliyi ilə yeni komanda iş başçındadır, nazirlərin bir çoxu əvəzlənib. Dediklərinizdən belə çıxmırmı ki, hökumətin fəaliyyətində əvvəlki dövrlərlə müqayisədə əsaslı fərq yoxdur?*

- Mən nazirlərin hamısının üzərinə kölgə salmaq istəmirəm. Amma yeni nazirin əvvəlkindən ciddi fərqi o zaman görünəcək ki, - bilirsiniz ki, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlar qəbul etmək səlahiyyəti var - hansısa nazir məsul olduğu sahənin yenidən qurulması ilə əlaqədar olaraq hansısa bir qərar qəbul edir. Qərara alır filan işlər görülsün: bir, iki, üç... Əgər hər hansı sahədə işin yenidən qurulması ilə əlaqədar olaraq yeni təyin olunanların əksəriyyəti özündə cəsarət tapıb belə bir normativ xarakterli sənəd hazırlamaq, yaxud qanun layihələri hazırlamaqla islahatlar aparmaq gücündə deyilsə, sadəcə köhnə nazirin vaxtilə vəzifəyə irəli çəkdiyi adamları uzaqlaşdırıb, özünün dost-tanışını vəzifələrə təyin etməyi islahat kimi qəbul edirlərsə, burada heç bir dəyişiklik olmayacaq. Bir çox hallarda o dəyişilən kadrlar - bu barədə parlamentdə də fikirlər səslənib - heç təyin olunduğu sahələri bilməyən adamlardır. Sadəcə yaxşı inzibatçıdır, kiminsə dostudur, nazirin iş yoldaşı olub. Beləliklə, nazir onu gətirib yeni vəzifəyə təyin edir. Amma onun həmin sahədən başı çıxır, o sahəni idarə edə bilər, ya bilməz, bu, artıq başqa məsələdir. Ya da hansısa bir adam əvvəl işlədiyi yerdə rüşvət almayıbsa, yalnız bu fakta görə gətirilib hansısa sahəyə rəhbər qoyulursa, düşünmürəm ki, bu, xalqın, prezidentin gözlədiyi ciddi nəticələri verəcək.

*- Son iclasda demək istədikləriniz var idi, amma sizi eşidə bilmədik. Buyurun, fikirlərinizi açıqlayın qəzetimiz vasitsilə...*

- Hazırkı vəziyyətə baxın, Azərbaycan prezidenti sərəncam imzalayıb, ərzaq məhsullarının tədarükü və təchizatı ilə bağlı səhmdar cəmiyyət yaradıb. Mən iclasdan sonra spikerlə də söhbətimdə bu barədə dedim. Yaxşı, indi büdcənin müzakirəsinə imkan olmadı və söz verilmədi. Amma heç olmasa hökumətin qarşısında məsələ qaldırılsın. Bu gün fermer soğanın kisəsini 3 manata satır, bunu heç Allah da qəbul eləməz. O qiymətə məhsulu yerdən qazıb çıxartmağa dəyməz. Kartofun kiloqramı 20 qəpikdir. Bir müddət sonra nə baş verəcək? 3-4 aydan sonra bizim dövlət ehtiyacları üçün xaricdən həmin ərzaq məhsulları bir neçə dəfə baha qiymətə alınacaq. Halbuki həmin o soğan, kartof, sarımsaq bizim fermerlərdən alınmalı, soyuduculara yerləşdirilməlidir və həmin o səhmdar cəmiyyət dövlət ehtiyacları üçün bunu satmalıdır. Mən oxuyuram, səhmdar cəmiyyətin Masallı regionu üzrə nümayəndəsinə “Azadlıq” Radiosunun müxbiri sual verir ki, bəs, siz niyə kartofu camaatdan almırsınız? Deyir biz yalnız uşaq bağçalarına kartof veririk. Bu, nə dərəcədə doğrudur, ya yox, deyə bilmərəm. Məndə olan məlumata görə, bəzi dövlət orqanları həmin cəmiyyətin nümayəndələrini ümumiyyətlə, qapıdan qovurlar. Bilirsiniz niyə? Çünki onlardan məhsul almaq sərf eləmir, çünki o halda “otkad” söhbəti artıq alınmır. İndi müəyyən iş adamları Azərbaycanın kartofunu 15-20 qəpiyə alıb, Rusiyaya daşıyırlar. Bu gün Rusiya bazarında kartof 40 qəpikdir. Payızda biz Rusiyadan kartofu 80 qəpik-1 manata alacağıq. Hökumət bu işlərlə məşğul olmalıdır, fermerləri düşünməlidir.

*- Kombayn problemi də yaşanır. Kənd Təsərrüfatı Nazirliyindən deyirlər ki, onlar cəmi iki aydır iş başındadırlar, amma problem kifayət qədər ciddidir...*

- Parlamentdə imkan olmadı, olsaydı, bu məsələni qaldıracaqdım. Əvvəllər də məsələ qaldırmışam ki, “Aqrolizinq” Cəmiyyəti ləğv olunmalıdır. Sahibkara güzəştli qiymətlərlə nə texnika satmaq, nə gübrə vermək lazım deyil. Sahibkar gübrəni başqa gübrə satan sahibkardan almalıdır. Sadəcə olaraq fermerlərin ucuz kreditə çıxışı olmalıdır. Sonra da fermer həm qazanc götürməlidir, həm də xərclədiyi pulu çıxarmalıdır. O, malını normal qiymətə satmalıdır. Hökumət sadəcə tənzimləyici funksiya yerinə yetirməlidir. Elə etməlidir ki, həmin o fermerin məhsulu onu razı salan qiymətə alınsın. Bunun üçün də Tədarük və Təchizat Səhmdar Cəmiyyəti yaradılıb. Büdcədən ona pul ayrılmalı idi. 2 milyard ki, büdcəyə əlavə vəsait ayrıldı, o vəsaitdən heç olmasa 50 milyon həmin Səhmdar Cəmiyyətə ayrılmalı idi. O qurum da gedib camaatın məhsulunu almalıdır. Fermerlərlə bağlı bəzi kadrlara baxırsan, adamın ürəyi parçalanır. Nə torpaqda saxlaya bilirlər, nə də normal qiymətə sata. Sahibkar deyir heç olmasa kartofu 40 qəpiyə alın ki, biz də qazanaq. İkincisi, xırda sahibkarlar niyə gedib özünə kombayn, ya traktor almalıdır? Bunun üçün dövlət stimullaşdırmalıdır ki, başqa hansısa sahibkar da gedib özünə 10 traktor, ya kombayn alır və onunla digər fermerlərə müqavilə əsasında xidmət edir. Yoxsa fermer texnikanı alır, 2-3 günə işini görür, sonra gərək o texnika onun həyətində ilin 363 günü qalsın. Azərbaycanda bax, bu işləri təşkil etmək lazımdır. Kənd Təsərrüfatı Nazirliyi bu cür tənzimləyici işlərlə məşğul olmalıdır. Ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanlarında sistem islahatları aparılmalıdır. Bu işlər görüləcəyi təqdirdə vəziyyət köklü şəkildə dəyişmək olar. Yoxsa zorla məcbur etmək ki, sən get, filan kənd təsərrüfatı məhsulunu yetişdir, yetişdirəndən sonra da qiymətdə razılıq əldə olunmasın, bu, inkişafa aparmayacaq. Niyə dövlət gətirib texnika satmalıdır? Sahibkar ehtiyac hiss edirsə, qoy gedib kredit götürsün, özünə texnika alsın. Niyə “Aqrolizinq” gətirib onu satmalıdır? Hamısı maxinasiya, rüşvət üçün yolların qoyulmasıdır. Hər halda indi də gec deyil. Mütləq təchizat idarəsinə vəsait ayrılmalıdır. Fermerlər yazıqdırlar, onlar çəkdiyi zəhmətin qarşılığında qazanc götürsünlər ki, gələn il də torpağı becərməkdə maraqlı olsunlar.

**P.S.** *Müsahibənin geniş variantı Musavat.com-da dərc olunur.*

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**



# Dəqiq yay

Zamin HACI
zaminhaci@gmail.com

“Çırmanırıq keçməyə çay gəlməmiş,
Başlayırıq qızmağa yay gəlməmiş"

**(Sabir bu şeirində ölkəmizin islahatlara qədərki dövrünü əks etdirmişdir)**

**Hörmətli zəhmətkeşlərimiz özləri üçün xoşbəxtcəsinə yaşayırlar, istidə tərləyirlər, soyuqda büzüşür, yağışda islanır, dumanda azırlar, lakin heç ağıllarına gəlmir ki, bütün bu proseslər ölkəmizdə hüquqi baxımdan tənzimlənir. Bircə faktı yazım: iyun ayının 21-də saat 14:07-yə qədər havalar sərin keçirdi. Adamların bəzisi hətta gödəkçədə gəzirdi. Lakin həmin andan etibarən dərhal istilər başlandı. Nəyə görə? Çünki Azərbaycanda yay girdi. Çox dəqiq formada. Nəyə inanırsınızsa (oxucularımın hərəsinin kefi istəyən bir şeyə inandığı haqda dəqiq məlumatlarım vardır, hətta ağıllı adamlar demişkən, yox deyildir) ona and içirəm ki, istilər məhz həmin günün günortasında saat üçə sıfır yeddi dəqiqə işləyərkən başlandı.**

Eyni qaydada sentyabrın 23-ü gecə saat 5:54:06-da ölkəmizə payız girəcəkdir, buna şübhəniz olmasın. Ta o vaxtacan isti olacaqdır. Özü də ölkəmizdə iqtisadi-siyasi islahatların günü-gündən daha da töhfə verməsi payızın gəlmə vaxtının müəyyənləşməsində özünü göstərir. Fikir verdinizsə, orada iş saniyəsinəcən bilinir, yay isə dəqiqəyə qədər məlum idi. Altı saniyə. Mən ölü, siz diri, sentyabrın 23-ü gecə saatı qurub baxarsınız, səhər saat altıya beş dəqiqə əlli dörd saniyə qalmış hava qəfil sərinləməsə heç mənim qandığım qrafa yoxdur. O xarici, yiyəsiz dövlətlərdədir, görürsən yayda qar yağır, qışda buz əriyir, nə bilim, yazda səbət dalından gilas tökülür və sairə. Elə dünən Hindistanda avtobus aşmışdı.

Bizdə bütün proseslər xidməti qaydalara uyğun aparılır. Misal üçün, bugünlərdə Ədliyyə Nazirliyi tərkibində Probasiya Xidməti adlı təzə idarə yaradıldı. Bu idarə cinayət törətmiş, lakin türməyə salınmayan adamlara nəzarət edəcəkdir. Yəni, xalqımıza. Axı biz hamımız hökumətin nəzərində potensial quldurlarıq. Zarafat edirəm, belə şey yoxdur. Sadəcə, görürsən məhkəmə adamı zindana salmaq yox, küçə süpürmək, ağac dibi belləmək, zibil toplamaq kimi cəzalara məhkum edir, bax, həmin insanların doğrudan da bu işləri gördüyünə kimsə nəzarət etməlidir, ya yox? Hərçənd, indi ha fikirləşirəm yadıma türməsiz cəza alan kimsə gəlmir, yalnız bir-iki müxalifətçidən və jurnalistdən başqa. Onlara da elə həm türmədə, həm türmədən bayırda ictimai iş cəzaları verilirdi. Sözgəlişi, bu yaxında Mingəçevirdə bir kişi xeylağı aliment vermək istəmədiyi arvadını məhkəmə iclasında vurub öldürdü. Bıçaqla. Görəsən o, həmin bıçağı idarəyə necə keçirib? Biz jurnalistlər məhkəməyə girəndə nəzarətçilər qələmimizin içliyinə qədər çıxardıb baxırlar ancaq. Məhkəmə qərarını gözləmədən hərə problemini idarədə bu cür bıçaqla həll eləsə hakimlərin yükü azalacaqdır. Mənfi haldır. Pisləyirik. Qayıdaq yayın yanına.

Yayın gəlişini bizə yüksək dəqiqliklə Şamaxı Astrofizika Rəsədxanası çatdırmışdır. Şamaxıda AzTV şefinin çoxlu torpaq sahəsinin, mülklərinin olduğu bildirilir. Əlbəttə, teleskopla baxanda göyün dərinliyində də çoxlu torpaq sahələri vardır, kimə nə dəxli? İnsan başqasının var-dövlətini saymaz. Paxıl olmayaq. Rəsədxananın dövlət və xalq əlaqələri isə olduqca istidir. Biz ordan təkcə yayın, payızın gəldiyini, Ramazan ayının təqvimini öyrənmirik. Günəşdə partlayışlar varmı, protuberanslar Sumqayıt yolunda təmirlə məşğul olan fəhlənin başına, Saatlıda pambıq yığan kəndlinin beyninə neçə dərəcə təsir edəcəkdir, hansı plyajda əhali üçün dənizə baxmaq deşikləri qalmışdır, hansı meşədə ağacın kölgəsi neçə manata olacaqdır və sairə bu tipli dövlətçilik məsələləri orada elmi şəkildə araşdırılıb xalqa, dövlətə zəruri məlumatlar ötürülür. Çünki bunlar bizdə hər il mövsümdən mövsümə aktual olan vacib problemlərdir. Elə Milli Məclisin son iclasında informasiya qanununa edilən dəyişiklik xalqı məlumatlandırmağın yeni üsulunu göstərirdi. Bundan sonra nazirliklər xalqa hansısa xəbəri çatdırmaq istəsələr gərək bunu qabaqca Nazirlər Kabineti ilə dəqiqləşdirsinlər. Dəqiqlik olmalıdır. Yoxsa sən hər söhbəti aç qoy sayta, millət də girib baxsın ki, körpə uşaq ölümünə görə Avropada “birinci” yerdəyik... Nəyə lazım düşmən sevindirmək?

Bir də qarpızı ayın neçəsində yemək məsələsi var, bu da hazırda aktualdır, inşallah, gələn nömrədə...




# Bakı son müharibə hazırlığı içində - 5 günlük təlimdə əsas hədəf

## Paytaxtdakı möhtəşəm paradın ardınca bu gün ordumuz genişmiqyaslı hərbi təlimə başlayır; 20 minlik canlı qüvvə, yüzlərlə döyüş texnikası poliqonlarda; **politoloq:** “İlham Əliyevin Rusiya səfərindən sonra ordumuza döyüş tapşırığı verilə bilər...”

**Bu gün Azərbaycan Ordusunun növbəti genişmiqyaslı təlimləri başlayır. İyulun 2-dən 6-dək davam edəcək təlimlərə müxtəlif qoşun növləri, bölmələr, birlik və birləşmələr, o sırada 20 min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dən artıq müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 30-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.**

5 günlük təlimlərdə döyüş əməliyyatlarının aparılmasının müasir təcrübəsi nəzərə alınmaqla, müxtəlif növ qoşun əməliyyatlarının keçirilməsi, o cümlədən şərti düşmənə yüksək dəqiqlikli silah sistemlərinin etibarlı raket, artilleriya, bomba-hücum, eləcə də aviasiya və pilotsuz uçuş aparatları (PUA) ilə atəş zərbələrinin endirilməsi, həmçinin, genişmiqyaslı hücum əməliyyatının keçirilməsi ilə işğal edilmiş ərazilərin azad edilməsi üzrə tapşırıqlar yerinə yetiriləcək.

Kəskin kəsişən ərazi və mürəkkəb dağlıq relyef, həmçinin radioelektron mübarizə şəraitində keçiriləcək təlimlərdə birləşmə və hərbi hissələrin qarşılıqlı fəaliyyəti, qoşunlar və atəş vasitələrinin idarə olunması, eləcə də şərti düşmənin müxtəlif diversiya fəaliyyətlərinə qarşı taktiki epizodlar icra ediləcək. Təlimlərdə silahlanmasına yeni qəbul edilmiş ən müasir silah növlərinin və hərbi texnikanın tətbiqi ilə müxtəlif poliqonlarda döyüş atışlarının keçirilməsi nəzərdə tutulub.

*****

Təlimlərin konkret yeri göstərilməsə də, şübhə yoxdur ki, bu, cəbhəyanı zona olacaq. Diqqət edildisə, hərbi təlimlər faktiki surətdə işğal altındakı ərazilərin azad edilməsi üçün bəlkə də sonuncu baş məşq rolunu oynayacaq. Təlimlər həmçinin, yekun müharibə hazırlığı qənaəti yaradır. 2018-ci ilin yarısı arxada qalsa da, bu günədək sülh danışıqlarında heç bir müsbət dinamikanın müşahidə edilməməsi, əksinə, işğalçı tərəfin daha radikal mövqeyə köklənməsi Azərbaycana artıq ayrı seçim saxlamayıb.

Bəzi xarici hərbi ekspertlərə görə, Azərbaycan əslində genişmiqyaslı təlim adı altında özünün yeni və modern hərbi qüvvələrini konflikt zonasına yerləşdirmək hədəfi də güdür. Başqa sözlə, təlimlərin məntiqi davamı elə müharibə ola bilər - geosiyasi şərtlərdən asılı olaraq ya lokal, ya da daha geniş miqyaslı.

Budəfəki böyük təlim daha bir neçə aspektdən diqqət çəkir. Məsələ ondadır ki, 5 günlük təlim iyunun 26-da Bakıda keçirilən möhtəşəm parad və həmin paradda ilk dəfə Türkiyə birləşmələrinin iştirakından cəmi bir neçə gün sonraya təsadüf edir. Bu, hər şeydən öncə işğalçı Ermənistana silsilə güc nümayişinin davamıdır.

Ermənistandakı son hakimiyyət dəyişikliyindən sonra isə İrəvan-Moskva münasibətlərində Azərbaycanın xeyrinə işləyən bir qeyri-müəyyənlik yaşanır. Səbəblər barədə yazmışıq. Gizli qərbçi olan və komandasını bütünlüklə Rusiyaya rəğbəti olmayanlardan quran baş nazir Nikol Paşinyana, eləcə də qərbyönlü sayılan prezident Armen Sərkisyana Kremldə hələ ki, inam-etimad formalaşmayıb və belə görünür, formalaşmayacaq da.

Yeri gəlmişkən, Nikol Paşinyan 11-12 iyulda Brüsseldə keçiriləcək NATO sammitinə qatılmağa hazırlaşır - hansı sammitdə ki, “Rusiya təhlükəsi” mərkəzi mövzulardan olacaq. Sammitdən bir neçə gün sonra isə Rusiyada futbol üzrə dünya çempionatı bitəcək və Putinin “əl-qolu” açılacaq. İstisna deyil ki, məhz həmin dövrdə Moskvanın Qarabağ, Ermənistan və “ərköyün” Paşinyanla bağlı hansısa hərəkətliliyi və qərarı olsun...

*****

Siyasi müşahidəçilərin fikrincə, Azərbaycan ordusu son aylar cəbhə xəttinə yaxın poliqonlarda ard-arda hərbi birləşmələr səviyyəsində intensiv təlimlər keçirməklə Ermənistanda həqiqətən panika yaradıb. Bunu düşmən ölkə KİV-lərində gedən həyəcanlı yazı və şərhlərdən də görmək olar.

Belə ki, aprel ayından başlayaraq Azərbaycan ordusunun raket-artilleriya, tank və mühəndis-istehkam bölmələri taktiki təlimlər keçirib. Təlimlər demək olar, ara verməyib və Ermənistanda bu Azərbaycanın irimiqyaslı müharibəyə hazırlaşması kimi qiymətləndirilib. Bu dəfə isə söhbət 20 minlik canlı qüvvənin, yüzlərlə tankın və digər zirehli texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilən raket-artilleriya komplekslərinin və zərbə pilotsuz uçan aparatların tətbiqi ilə irimiqyaslı təlimlər barədə anons verilib. Gözləniləndir ki, bu təlimlər Bakıda keçirilən hərbi paradda nümayiş etdirilən yeni silah sistemlərindən pərt olan Ermənistanda müharibə təşvişini daha da artıracaq.

Üstəlik, 26 iyun hərbi paradında çıxışı zamanı prezident İlham Əliyev bir daha bəyan elədi ki, “müharibə hələ bitməyib, onun yalnız birinci mərhələsi bitib”. Bu, düşmən tərəfə aydın bir ismarışdır ki, Azərbaycan işğal rejiminə sonsuzadək dözmək fikrində deyil, böyük paralar xərcləyib aldığı, özünün istehsal elədiyi silah və döyüş sistemlərini vitrinə qoyub paslatmağa hazırlaşmır.

Bu xüsusda həm Bakıdakı hərbi parad, həm də il boyu davam edən hərbi təlimlər, o cümlədən qardaş Türkiyə ilə birgə keçirilən müştərək hərbi manevrlər işğalçıya silsilə güc nümayişi olmaqla yanaşı, savaşın uzaqda olmadığı haqda ciddi xəbərdarlıqdır. Əgər düşmən ismarışlardan nəticə çıxarmasa, günün birində hərbi təlimlər gerçək hərbi əməliyyatlara çevrilə bilər.

*****

“Hərb, yoxsa sülh” dilemması fonunda İlham Əliyevin bu yaxınlarda Rusiyaya nəzərdə tutulan səfəri də maraq kəsb edir. Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, ölkə başçısının Rusiyaya səfərindən sonra ordumuz yeni döyüş tapşırıqları ala bilər. Yəni Kremldən “dobro” verilməsi ehtimalı. Bunu o, axar.az-a açıqlamasında deyib.

Danışıqlar prosesinin artıq dalana dirəndiyini və erməni tərəfinin sülh prosesi ilə bağlı yerinə yetirilməsi mümkün olmayan ilkin şərtlər irəli sürdüyünü xatırladan politoloq deyib: “Minsk Qrupunun həmsədrləri də çox fəal deyillər. Belə görünür ki, ermənilər nəinki Dağlıq Qarabağ, hətta ətraf rayonlarla bağlı uzağa gedən ssenarilər hazırlayıblar. Bizim ərazilərdə xüsusilə də Suriyadan gələn ermənilərin məskunlaşdırılması prosesi davam edir. Aydındır ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmaq fikrində deyil, buna görə də sülh prosesinə məhəl qoymur. Qarabağ məsələsində açar rolunu oynayan Rusiya tez-tez ritorik bəyanatlar versə də, prosesdə heç bir fəallıq göstərmir. Belə olan halda məsələnin döyüş meydanlarında həll edilməsi variantı önə çıxır”.

Sabiq dövlət müşaviri bu mənada düşünür ki, ordumuzun qrafik üzrə döyüş qabiliyyətini təkmilləşdirməsi və 2-6 iyul aralığında keçiriləcək təlim-məşq prosesləri ciddi döyüş hazırlığından xəbər verir. “Hesab edirəm ki, Azərbaycan Ordusu həlledici döyüşlərə hazırlıq ərəfəsindədir”, - deyə politoloq əlavə edib.

Erməni ekspert Ara Papyan isə Azərbaycan ordusunun paradın ardınca irimiqyaslı hərbi təlimlərə başlamasına diqqəti cəlb edib. Onun sözlərinə görə, Azərbaycan ordusu təkcə Qarabağ istiqamətində deyil, Naxçıvan və Tavuş istiqamətində də qüvvə cəmləşdirir. “Təhdid bu baxımdan daha da artıb. Azərbaycan cəmiyyəti deyəsən müharibəyə başlamağa hazırdır” - Papyan deyib. Onun qənaətincə, əgər ordu irimiqyaslı təlimlər keçirirsə, növbəti mərhələ müharibə ola bilər. Çünki təlimlərdən müharibəyə keçmək asandır.

Azərbaycan Ordusunun əsas hədəfi də təlimlər yox, torpaqların azad edilməsidir. Özü də tezliklə...

❑ “Yeni Müsavat”ın analitik xidməti

**"ABŞ Krımı Rusiya ərazisi kimi tanıya bilər". ABŞ prezidenti Donald Tramp jurnalistlərin sualını cavablandırarkən belə bir qərarı istisna etməyib. Prezident "Bu məsələyə baxarıq" deyib. Tramp Krımın Rusiyaya birləşdirilməsində sələfi Barak Obamanı günahlandırıb. "Buna Barak imkan verdi" deyib.**

# Tramp Krımı Rusiya ərazisi kimi tanıya bilər?

## Ekspertlər Qarabağ üçün də belə bir təhlükəni istisna eləmirlər: "Trampdan hər şey gözləmək olar..."

Rusiyaya qarşı sanksiyaların ləğvi imkanları barədə suala da Trampın cavabı maraqlı olub: "Baxaq görək Rusiya özünü necə aparır..."

Bəs ABŞ-ın Krımı Rusiyanın tərkib hissəsi kimi tanıması mümkünmü? Bu baş versə, Qarabağ üçün də belə bir təhlükə vəd edirmi?

Politoloq Əhəd Məmmədli bildirdi ki, Tramp kimi proqnozlaşdırılmayan, Qüdsə ABŞ səfirliyini köçürməkdən çəkinməyən adamın qarşıdakı dönəmdə Krımı da Rusiya torpağı elan etməsi, ardınca Dağlıq Qarabağı tanıması belə, mümkündür: "Krım ruslar üçün daha müzakirə mövzusu deyil. Bu cür təklif Çexiya prezidenti tərəfindən də səslənmişdi. İndi də Tramp tərəfindən səslənir. Və buna da Ukraynanı vadar edə bilərlər. Əvvəllər Krımın Rusiyanın tərkibində olduğunu bəhanə edib Krımın anneksiyasını tanıya bilərlər. Artıq bunun mesajlarını da görürük. Dağlıq Qarabağla bağlı durum bir qədər fərqli olsa da, Trampın hər cür addım ata biləcəyi istisna deyil. Çox az ehtimal olsa da bu ehtimal var. Burada bizim xeyirimizə bi nüans var ki, Trampa erməni lobbisinin təsir imkanları yox dərəcəsindədir. Hələlik Qarabağa Trampdan real təhlükə yoxdur, amma kim zəmanət verə bilər ki olmayacaq da. Sabah Azərbaycanın ABŞ ya Rusiya ilə arası dəysə, Dağlıq Qarabağı da tanıya bilərlər. Ona görə nə qədər gec deyil, Azərbaycan öz torpaqlarını qaytarmalıdır".



Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirdi ki, bu məlumat Rusiya mətbuatında gedib, ruslar da geniş şəkildə istifadə etməyə başlayıblar: "Rus mediası yazır ki, Ukraynanın ABŞ üçün önəmi yoxdur, istənilən vaxt Ukraynanı istifadə edib ata bilərlər və sair. Hesab edirəm ki, ABŞ-ın Krımı Rusiya ərazisi kimi tanıyacağı real deyil. Tramp iyulun 16-da Putinlə görüşəcək. Görüş öncəsi bu tipli açıqlamalar verir. Əslində isə ABŞ Krım məsələsini ən azından Rusiyaya təzyiq vasitəsi kimi həlelik arsenallarında saxlayacaq. Digər tərəfdən isə, məlum deyimə görə, heç bir dövlət, o cümlədən və xüsusilə ABŞ üçün daimi düşmən yoxdur, daimi maraqlar var. Burda bir məqam da var ki, ABŞ Rusiyanın Donbası sərbəst buraxması müqabilində bu bazarlığa gedə bilər. Dağlıq Qarabağ məsələsinə gəlincə, Donald Tramp çox asanlıqla bu addımı ata bilər. Belə ki, Vaşinqton Ermənistanı tam öz nəzarətinə keçirərsə, Dağlıq Qarabağı tanıyıb, oraya silahlı qüvvələrini yerləşdirmək iddiasına düşə və bu istəyini reallaşdırmağa çalışa bilər. Çünki bu məntəqə ABŞ-ın İran və Türkiyə siyasətində vacib rol oynaya bilər. Onlar üçün coğrafi baxımdan əhəmiyyətli olan bu məntəqədən İrana və Türkiyəyə qarşı təzyiq və təhdid, hətta müdaxilə məqsədilə istifadə edə bilərlər. Odur ki, burada Azərbaycan, Türkiyə və İran üçün eyni təhlükələr yaranır. Ona görə də birgə əks-tədbirlər üzərində düşünməlidirlər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ərdoğan Bakıya mühüm mesajla gəlir

## Politoloq: "Elə bir sazişin imzalanması gözlənilir ki..."

**"Ərdoğanın bu səfəri tarixi xarakter daşıyacaq. Burada imzalanacaq sənədlər isə bu səfərin əhəmiyyətini bir az da artıracaq". Bu sözləri Axar.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib. O bildirib ki, Ərdoğan prezident seçildikdən sonra ilk səfərini Azərbaycana edəcək.**



"Çünki Şimali Kipr Türk Cümhuriyyəti dünya tərəfindən tanınmamış bir bölgədir. Buna görə də Ərdoğanın ilk rəsmi səfərini Azərbaycana etdiyini demək olar. Bu isə qardaş respublikanın uzun illərdir tətbiq etdiyi, həyata keçirdiyi diplomatik praktikadır. Yəni bununla Türkiyə Azərbaycana olan hörmətini, ehtiramını bir daha sübut edir və Azərbaycanın Türkiyə üçün geostrateji əhəmiyyətini ön plana çəkir. Bu eyni zamanda o deməkdir ki, bütün məsələlərdə Türkiyə Azərbaycanın yanındadır. Azərbaycanın problemi Türkiyənin problemi, Azərbaycanın uğuru isə Türkiyənin uğuru kimi qarşılanır", - deyə o qeyd edib.

Onun sözlərinə görə, Ərdoğanın indiki səfəri Türkiyədə baş verən ciddi dəyişikliklərlə birgə həyata keçiriləcək: "Türkiyə artıq yeni bir siyasi sistemə keçir. Bu siyasi sistem prezident üsul-idarəsidir. Yəni prezident hakimiyyəti formasıdır. Hətta başqa prezident üsul-idarələrindən fərqli olaraq, Türkiyədə baş nazirlik postu da ləğv edilir. Bu, bir növ ABŞ variantına daha çox bənzəyir. Yəni Türkiyədə Nazirlər Kabinetinin başçısı da prezident olacaq, icra hakimiyyətinin bütün səlahiyyətləri prezidentin əlində cəmləşəcək. Qanunvericiliyin mərkəzi kimi isə parlament öz funksiyasını yerinə yetirməyə davam edəcək. İcra hakimiyyəti isə bütövlükdə Prezident Aparatına və Prezidentə aid olacaq".

Politoloq vurğulayıb ki, Azərbaycan-Türkiyə münasibətləri çox rəvan inkişaf edir: "Bu gün Azərbaycanla Türkiyə arasındakı ticarətin ümumi dövriyyəsi təxminən 10 milyard dollara yaxınlaşır. Azərbaycan Türkiyə iqtisadiyyatına ən böyük sərmayə yatıran ölkələrdən biridir. Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 30 milyard dollardan çox sərmayə yatırıb. Həmçinin iki ölkə arasındakı ticarət dövriyyəsi də ilbəil artır. Bu gün Azərbaycanla Türkiyə arasında hədəf kimi nəzərdə tutulan ən mühüm məsələlərdən biri iki ölkə arasında hərbi-siyasi ittifaqın həyata keçirilməsidir. Azərbaycan uzun müddətdir ki, Türkiyə ilə hərbi-siyasi sazişin bağlanmasına, iki ölkə arasında hərbi ittifaqın mövcudluğunu həyata keçirməyə can atır. İndiyə qədər Türkiyədə parlamentdə belə bir ittifaqın yaradılması üçün razılıq əldə etmək bir qədər çətin idi. Amma indi "Cümhur İttifaqı" parlamentdə yerlərin əksəriyyətini əldə edib. Prezident üsul-idarəsinə keçid isə Ərdoğanın hakimiyyətini xeyli gücləndirib. Zənnimcə, bu səfər zamanı iki ölkə arasında hərbi-siyasi münasibətləri daha yüksək səviyyəyə qaldıra biləcək saziş imzalana bilər. Bunun ittifaq dövləti kimi başa düşülməsi isə yanlış olardı. Çünki ittifaq dövləti konfederativ birlik deməkdir ki, buna isə iki ölkə hələ hazır deyil. Amma hərbi-siyasi saziş hərbi, siyasi sahədə iki dövlətin səylərini birləşdirən və iki dövlətin siyasi, hərbi qüdrətini ortaq dəyərə çevirən sazişin imzalanması deməkdir".

Politoloqa görə, bu sazişin imzalanması həm ölkədə qanunvericilik səviyyəsində, həm də NATO ilə razılaşdırılmış şəkildə həyata keçirilə bilər: "Çünki Ərdoğan kifayət qədər müstəqil siyasət aparır. Bu siyasət nəticəsində Azərbaycan üçün çox önəmli olan belə bir sazişin imzalanmasına nail ola bilərik. Bu saziş imzalanarsa, artıq Dağlıq Qarabağ sırf Azərbaycanın problemi olmaqdan çıxar və Türkiyənin problemi kimi də qəbul edilə bilər. Bu, imzalanacaq sazişin müddəalarından asılı olacaq. Güman edirəm ki, Türkiyə artıq Azərbaycanın ərazi bütövlüyü məsələsində daha qətiyyətli addımlar atmaq üçün belə bir sazişin imzalanmasına gedəcək".

Politoloq qeyd edib ki, Ərdoğan Qarabağ problemini seçki platformasına da daxil etmişdi: "Bu da gələcək danışıqlar prosesinin əvvəlcədən xəbərdaredici notları kimi qəbul edilməlidir".

Qeyd edək ki, iyulun 10-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Quzey Kıprısa edəcəyi, elə həmin gün Kıprısdan Azərbaycana gələcəyi gözlənilir.

# 5 rayonluq "tələ" yaxşıdır, yoxsa 7?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**"Dağlıq Qarabağ və ətrafındakı işğal olunmuş yeddi rayon Ermənistan tərəfindən azad edilməli və heç bir əlavə şərt irəli sürülmədən Azərbaycana qaytarılmalıdır".**

Rusiya Dövlət Dumasının komitə sədri müavini Dmitri Savelyev bunu virtualaz.org-a deyib. İlk baxışda gözəl fikirlərdir, ürəyimizdən xəbər verir. Amma bu kimi fikirləri neçə ildir eşidirik?

Dövlət Dumasının deputatı Aleksey Yezubov isə rayondandan ikisini "ixtisara salıb". "Putin, Sərkisyan və Əliyev tərəfindən hazırlanmış yol xəritəsinə müvafiq olaraq, Ermənistan işğal edilmiş beş rayonu Azərbaycana qaytarmalıdır".

Ardınca rusiyalı jurnalist Maksim Şevçenko iddia edib ki, Serj Sərkisyan Azərbaycan torpaqlarını geri qaytarmaq istəyirmiş, Ermənistandakı çevriliş razılaşmanın əldə olunmasına imkan verməyib. Sərkisyan ha, Xocalı canisi, uşaq qatili!

Anlaşılandır, Rusiya üçün Ermənistanın yeni hakimiyyəti arzuolunan deyil, ona görə də fürsət düşən kimi onu vurmaq istəyirlər. Elə Rusiya ideoloqları da Kremlin maraqlarından çıxış edirlər. Amma onlardan xahişimiz budur ki, bizim başımızı nağıllarla qatmağa çalışmasınlar.

Rusiya üçün Ermənistanın keçmiş, yaxud indiki hakimiyyətinin qulağından tutub Qarabağdan kənara atmaq çoxmu çətindir? Təbii ki, yox. Amma etmir. Əvəzində Rusiya hakimiyyətinin "ideoloqları" "5 rayon-7 rayon" söhbətini ortaya atıb başımızın altına "yastıq" qoyurlar. Politoloq Markovun sözlərinə inansaydıq, Dağlıq Qarabağ ətrafındakı rayonlar hələ 2016-cı ilin sonlarınadək qaytarılmalı idi. Rus ekspertlər bizi inandırmağa çalışırdılar ki, torpaqlar qayıdır. O müddətdə düşmən yeni səngərlərdə möhkəmləndi, ABŞ-dan gecəgörmə avadanlıqları, Rusiyadan "İsgəndər" raketləri aldı, sonrakı dönəmlərdə yenə də şəhidlər verdik. Sanki bəzi ekspertlər məqsədli şəkildə sakitlik yaratmağa çalışırlar ki, Ermənistan özünü toparlasın.

Əgər rus ekspertin dediyi kimi olsaydı, Kreml heç olmasa, ətraf rayonların işğaldan azad olunmasını istəyərdi. Amma bu, baş vermədi, hətta Azərbaycan hərbi qüdrətini nümayiş etdirən kimi, Rusiyadan emissarlar gəldi.

Professor İlham Rəhimov hələ 2016-cı ildə ətraf rayonlar məsələsi ortaya atılanda demişdi ki, "'5+2 formulu" bizim üçün qurulmuş bir "'tələ"'dir. Bunu Rusiya hakimiyyət dairələrinə kifayət qədər yaxın və Kremlin siyasətinə bələd olan təcrübəli ictimai-siyasi xadim söyləmişdi.

Rusiya hətta öz vətəndaşı olan Dilqəm Əsgərovun və onunla birlikdə Kəlbəcərdə girov götürülən Şahbaz Quliyevin erməni terrorçularının əlindən alınması üçün bir tədbir tökmür. Artıq 4 ildir öz evində girovdur bu adamlar! Amma nə olsun, nə Rusiya, nə ABŞ, nə də Fransa məsələni görməzdən gəlir.

Dünyada antiterror koalisiyası var, İŞİD-ə, "Əl-Qaidə"yə, Talibana, PKK-ya qarşı mübarizə var, amma təkcə erməni terrorizminə qarşı mübarizədən bəhs olunmur. Hətta onlardan bəhs olunarkən "öz müqəddəratını təyinetmə"dən bəhs olunur. Rusiya da bu əcaib prosesin başında dayanır. İstəsə, Paşinyanı bir günün içərisində ədalətli sülhə imza atmağa vadar edər.

Rus ekspertlər yarışa girib, biri deyir 5 rayon qaytarılmalıdır, o biri deyir 7. Bizim torpağımız hərraca çıxarılıb - adama ağır gələn həm də budur. Taleyimizi ancaq özümüz həll etməliyik, başqası həll edəcəksə, "tələ taleyi" yaşayacağıq, necə ki, tarixdə çox görmüşük. Rusiya bizdən 80 faizi geri istəməklə 20 faizin bazarlığına getmək istəyəcək, şübhəsiz ki.

Bizsə müstəqilliyimizdən heç vaxt imtina edə bilmərik, bunu Azərbaycan dövlətinin rəhbərliyi də hər zaman bəyan edib. Şübhəsiz ki, Moskva da bizim mövqeyimizi yaxşı bilir, sadəcə illəri uzadır, "danışıq" vasitəsilə.

Ermənilərsə... Qarabağ separatçılarının rəhbərliyi bu günlərdə Ağdərəyə - Madaqiz və Talış kəndlərinə gəlmişdilər, tikirlər, qururlar. Azərbaycana qaytarmaq üçünmü? Təbii ki, yox!

Qarabağdakı rejim yay boyunca ailə düşərgələri yaradacağını açıqlayıb. Kəlbəcərdə, Laçında, digər cənnət guşələrimizdə düşərgələr salırlar. Bakıda hərarət 40 dərəcəni keçən bu günlərdə işğalçılar Qarabağ meşələrində sərinlənib ünvanımıza söyürlər. Bir foto gördüm, azərbaycanlı xanımın məzarını təhqir edən erməni dığanın fotosunu. Təkcə bu şəkil bəs edir torpaqların azadlığı uğrunda silaha sarılmağımız üçün. Topxanada ağac qırılmasından milyon qat ağır cinayətdir! Torpaqları azad etməyin bir yolu qaldı. Yoxsa "tələ"nin fərqi yoxdur, istə 5, istər 7 rayonlu olsun...

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

**100 yaşlı müstəqil Azərbaycanımızın prioriteti, əlbəttə ki, işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsidir. İşğalçı Ermənistanın heç bir vəchlə işğalçılıq siyasətindən əl çəkməməsi səbəbindən sülh danışıqları uzun illərdir ki, nəticə vermir. Təbii ki, belə olan halda Azərbaycan öz konstitusion hüququna və beynəlxalq hüquq normalarına da istinad edərək, hərbi yolla torpaqlarını azad etmək əzmində və qüdrətindədir.**



# Azərbaycandan dünyaya Qarabağ xəbərdarlığı; Zəngəzur, Göyçə, İrəvan mesajı

## 100 yaşlı müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpasına hazır olan ordumuzun keçirdiyi möhtəşəm paradda prezidentin işğalçıya verdiyi son mesajlar...

Müşahidələr və gedən proseslər onu deməyə tam əsas verir ki, artıq Ermənistan öz taleyi haqqında ciddi düşünməlidir. Azərbaycan Ordusunun yaranmasının 100-cü ildönümü ilə bağlı 26 iyun 2018-ci ildə keçirilən möhtəşəm paradda Prezident, Ali Baş Komandan İlham Əliyevin Ermənistana və dünyaya verdiyi mesajlar əminlik yaradır ki, Azərbaycan istənilən an öz torpaqlarının azad edilməsinə başlamağa hazırdır. Bu zaman isə artıq bütün dayaqlarını itirmiş, daxili intriqaların baş alıb getdiyi, xaos yaşanan Ermənistanın hansı vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyil.

Prezident İlham Əliyevin hərbi paraddakı çıxışında səsləndirdiyi mühüm fikirlərə, çağırış və xəbərdarlıqlara diqqət edək:

- "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır".
- "Ordusunun müasir maddi-texniki təchizatı baxımından Azərbaycan dünyanın ən nadir ölkələrindən biridir".
- "Azərbaycan Ordusunun döyüş qabiliyyəti yüksək səviyyədədir".
- "Azərbaycanda 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir".
- "Aprel döyüşləri Ermənistanın öz ordusu ilə bağlı yaydığı mifi darmadağın etdi".
- "Biz elə bir güclü ordu yaratmışıq ki, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir".
- "Bu parad Azərbaycan Ordusunun gücünü düşmənə və bütün dünyaya nümayiş etdirəcəkdir".
- "Azərbaycan xalqı əmin ola bilər ki, ordumuz istənilən vəzifəni icra etməyə hazırdır".
- "Ermənistan Azərbaycanla rəqabət apara bilmir və heç vaxt buna nail ola bilməyəcək".
- "Azərbaycan heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcək".
- "Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur və istənilən vəzifəni yerinə yetirə bilər".
- "Bu gün hərbçilərimiz ermənilərin ərazimizdə qazdıqları səngərlərdə xidmət göstərirlər".
- "Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda nümayiş etdiriləcək"...

Prezidentin hərbi paraddakı çıxışı yuxarıdakı sitatlardan da göründüyü kimi, işğalçıya xəbərdarlıqla yanaşı, Azərbaycanın dünyaya Qarabağ münaqişəsinin həllinə dair mesajı kimi başa düşülə bilər. Ali Baş Komandanın icmarıc və xəbərdarlıqlarını şərh edən politoloq Elxan Şahinoğlunun fikrincə, hərbi parad da göstərdi ki, Azərbaycan ordusu NATO standartlarına yaxınlaşır. Bu, özünü həm hərbçilərin geyimində, həm də alınan hərbi texnikada göstərir. Politoloq deyir ki, Azərbaycanın silah aldığı ölkələrin sayı son illərdə artıb. Əlbəttə, Azərbaycan ordusunun qüdrətini, inkişafını dünyaya, o cümlədən Azərbaycan torpaqlarını işğal edən Ermənistana göstərilməsi vacib idi: "İkincisi, Azərbaycan prezidenti İlham Əliyev hərbi parad vasitəsilə vacib mesajlar verdi. Bu da əhəmiyyətli idi. Doğrudur, İlham Əliyev Azərbaycan ordusu ilə bağlı mütəmadi olaraq mesajlar verir, işğal faktoruna toxunur. Ancaq hərbi parad elə bir müstəvidir ki, orada verilən mesajlar daha diqqətlə analiz edilir və Azərbaycan ordusunun gələcək hədəfləri müəyyənləşdirilir, Azərbaycan və dünya ictimaiyyətinə çatdırılır. Bu mesajları isə diqqətlə analiz etməyə ehtiyac var".








E.Şahinoğluna görə, prezident İlham Əliyevin hərbi paradda çıxışı zamanı əsas mesajı bu idi: "Müharibə başa çatmayıb, müharibənin yalnız birinci mərhələsi başa çatıb".

Politoloqun fikrincə, Ermənistanda heç bir siyasətçi Azərbaycan ordusunun real gücünü görməyənə qədər geri addım atmayacaq: "Deməli, bütün hallarda son sözü Azərbaycan ordusu deyəcək. İlham Əliyevin "Azərbaycan heç vaxt işğalla barışmayacaq və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək" sözləri də bundan xəbər verir. Azərbaycanda ordu yeganə sahədir ki, xərcləri sürətlə artır. 2003-cü ildən bu günə qədər Azərbaycanın hərbi xərcləri 15 dəfə artıb".

Prezidentin hərbi paraddakı xəbərdarlıqları ilə bağlı politoloq deyir ki, beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, Ermənistanın Azərbaycan torpaqlarının işğalına son qoymur, mexanizmlərini işə salmır: "Ona görə də prezident də əmin olub ki, torpaqların işğaldan azad olunmasının yeganə alternativi ordunun əməliyyatları ilə bağlıdır. Ermənistanı cəzalandırmaqdan başqa yol qalmayıb. Azərbaycan ordusu yeni strategiyadan çıxış edir. Bu, özünü 2016-cı ilin aprel ayında və son Naxçıvan əməliyyatında göstərdi. Kiçikmiqyaslı hərbi əməliyyatlarla strateji yüksəkliklər azad edilir. Bu, Azərbaycan ordusuna mənəvi üstünlük qazandırır. Böyük dövlətlər, o cümlədən Rusiya Azərbaycan ordusunun yeni strategiyasına mane ola bilmir".

Burada bir məqama da xüsusi diqqət edilməlidir: Beynəlxalq hüququn Azərbaycanın xeyrinə olması, ordumuzun işğal altındakı torpaqlarımızı bir neçə günə tam azad etmək imkanlarında, gücündə olması ilə yanaşı, regionda gedən proseslər, o cümlədən düşmən ölkədəki hazırkı siyasi, iqtisadi və hərbi şərtlər də birmənalı olaraq Azərbaycanın xeyrinədir.

Faktiki olaraq Ermənistanda xaos hökm sürür. Baş nazir Nikol Paşinyanla məmur-oliqarxiya, sabiq prezident Serj Sərkisyanın iqtidarda olan kadrları savaşır. Başqa bir nüans isə ondan ibarətdir ki, Paşinyan Ermənistanı Rusiyadan uzaqlaşdırır, o, Qərbin kadrı kimi xarakterizə olunur. Görünən odur ki, Rusiya Ermənistanın yeni rəhbərliyinə qəzəblidir, onu faktiki olaraq dəstəkləmir. Belə bir şəraitdə və şərtlər daxilində Azərbaycan Ordusunun Qarabağda keçirəcəyi əməliyyatlar zamanı Rusiyanın Ermənistana əvvəlki dəstəyi verəcəyi qətiyyən inandırıcı deyil.

Belə bir ağır durumda olduqlarını Ermənistanın baş naziri Nikol Paşinyan özü də başa düşür. Heç şübhəsiz, bu səbəbdəndir ki, o, Qarabağla bağlı mövzunu, müzakirələrin yönünü dəyişməyə cəhdlər edir. Paşinyan Azərbaycan prezidenti İlham Əliyevlə görüşməyə hazır olduğunu nəzərə çatdırıb. Amma eyni zamanda belə bir absurd iddia da səsləndirir ki, "danışıqlarda Qarabağ təmsilçiləri də iştirak etməlidirlər, mən onların yerinə qərar verə bilmərəm". Bu, Paşinyanın sadəcə özü özünü aldatması kimi başa düşülməklə yanaşı, həm də onun hiyləgərcəsinə Ermənistanın daxili auditoriyasını, xüsusi ilə "Dağlıq Qarabağ erməni klanı"nı sakitləşdirməyə çalışır.

Amma bunlar mənasızdır, çünki rəsmi Bakı Paşinyanın təklifi ilə heç bir halda razılaşa bilməz.

Politoloq Elxan Şahinoğlunun sözlərinə görə də Azərbaycan iki səbəbdən bununla razılaşmayacaq: "Birinci səbəb odur ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Əgər rəsmi Bakı Qarabağ separatçıları ilə danışıqlara başlasa, işğalda Ermənistanın rolu olmadığı görüntüsü yaranacaq.

İkinci səbəb isə budur ki, münaqişənin həllinin sonrakı mərhələsində müzakirələrdə Qarabağ təmsilçilərinin iştirakı istisna olunmur. Ancaq bu danışıqlarda Qarabağın erməni icması ilə yanaşı, azərbaycanlı icması da iştirak etməlidir. Bu olmadan rəsmi Bakı Qarabağın erməni separatçıları ilə danışıqlar aparmayacaq.

Qarabağ məsələsində N.Paşinyanın Serj Sarkisyandan fərqi yoxdur. Paşinyan S.Sərkisyandan az separatçı olmadığını sübut etməyə çalışır. Paşinyanın baş nazir seçilməsindən iki ay keçib, ancaq o bu müddətdə artıq ikinci dəfə Qarabağa gəlib və yenə təxribatçı açıqlamalar səsləndirib".

Müşahidələr və rəylərdən gəlinən qənaət birmənalı olaraq budur ki, Paşinyan Azərbaycanla sülhə hazır deyil. Bu isə Azərbaycanın hərbi güc tətbiqinə tam əsas və hüquq yaradır.

Belə bir ərəfədə Azərbaycan ordusunun Naxçıvanda keçirdiyi uğurlu Günnüt əməliyyatı isə belə bir ərəfədə faktiki olaraq Paşinyanın manevr imkanlarını tamamilə əlindən alıb. Bu, işğaldakı torpaqlarımızın tam azd edilməsinin başlanğıcı kimi də qiymətləndirilir. Rəylər bundan ibarətdir ki, Azərbaycan ordusu Naxçıvandakı uğurunu Dağlıq Qarabağda da təkrarlaya bilər.

Elxan Şahinoğlu da bildirir ki, Azərbaycan üçün geriyə yol yoxdur: "2016-cı ilin aprel döyüşləri Azərbaycan cəmiyyətinin orduya inamını artırıb. Danışıqlar nəticə verməyib və verməyəcək. Ermənistanda Azərbaycan torpaqlarının azad edilməsi zərurətini anlayan siyasətçi yoxdur. Diplomatiyanın bacarıqsız olduğu yerdə ordu ilk plana çıxır. İndiki vəziyyətdə ordu diplomatiyanı üstələməyə başlayıb. Azərbaycanın əsgər və zabitləri döyüşə atılmaq üçün fürsət gözləyirlər. Bu təbiidir. Ermənistanda 25 ildə yetişən yeni nəsil isə Qarabağ uğrunda ölüm-dirim savaşına hazır deyil. İşğalçını sülh masasına otuzdurmayana qədər təmas xəttində problemlərini artırmaq lazımdır".

"Cümhiriyyət ili"ndə Azərbaycan prezidentinin son aylarda vurğuladığı digər bir məqam isə tarixi torpaqlarımız olan Göyçə, Zəngəzur, İrəvanla bağlıdır. Dövlət başçısı İlham Əliyev çıxışlarında qeyd edir ki, bu tarixi torpaqlar unudulmamalıdır. Sitat: "Və biz bu torpaqları unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

Prezident "Cumhuriyyət İli" fonunda həyata keçirilən araşdırmalarda tarixi Azərbaycan torpaqları, bu torpaqların kimlərin vasitəsilə kimlərə verildiyi, zəbt edildiyi ilə bağlı məsələlərə də diqqət yetirməyin vacibliyini vurğulayıb. Müxtəlif strukturlar, QHT-lər bununla bağlı ciddi addımlar atırlar.

"Biz zaman-zaman "Böyük Çin", "Böyük Rusiya, "Böyük Ermənistan" kimi ifadələrə rast gəlirik. Həmin dövlətlərin nümayəndələri bu cür ifadələrlə öz böyüklüklərini təlqin etməyə çalışırlar. Halbuki, bu gün Ermənistanın malik olduğu bütün torpaqlar bizimdir. Necə ola bilir ki, Ermənistan Azərbaycan torpaqlarını zəbt etsin, orada ikinci bir erməni dövləti yaratmağa cəhd etsin, ancaq biz öz tarixi torpaqlarımıza iddiamızı bildirməyək?!" Prezidentin bu sitatı Azərbaycanın dünyaya, işğalçı Ermənistana mesajıdır ki, Azərbaycan nəinki Qarabağın azadlığına nail olacaq, bununla kifayətlənməyərək, öz tarixi torpaqları olan Göyçə, Zəngəzur və İrəvana da sahib çıxacaq.

**Qeyd:** *Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb.*

❑ **Elşad MƏMMƏDLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Bu gün Azərbaycan Ordusu növbəti iri təlimə başlayır. Təlim ərəfəsi müdafiə naziri, general-polkovnik Zakir Həsənov xidməti müşavirə keçirib. Tədbirə müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri qatılıb, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsindəki birləşmə komandirləri və digər məsul zabitlər cəlb olunub.**






# İşğaldan qurtuluş ssenariləri masa üzərində - mühüm gəlişmə

## Azərbaycanın müdafiə nazirinin düşmənə verdiyi mesajın pərdəarxası; ekspertlər savaş perspektivindən danışdılar; "Müharibə təlimlər zamanı da başlaya bilər..."

Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə hərbi qulluqçuları bir daha təbrik edən nazir hərbi paradda iştirak etmiş şəxsi heyətin, eləcə də döyüş texnikası və aviasiya vasitələrinin heyətlərinin hazırlığını yüksək qiymətləndirib. Paradın keçirilməsindən məmnun qaldıqlarını bildirib. Eyni zamanda, işğalçı tərəfə sərt mesaj yollayıb.

"Münaqişənin həllinin uzadılması onun yenidən və daha geniş miqyasda alovlanmasına aparır. Münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsiplərinə əsasən ədalətli həll olunmalıdır. Əks halda düşmən Azərbaycan xalqının əzmini və vətənpərvərliyini, eləcə də ordumuzun silahının gücünü öz üzərində hiss edəcək" - deyib. Bu xüsusda təlimlərdə əsas diqqətin işğal olunmuş ərazilərin azad edilməsinin müxtəlif ssenariləri üzrə qoşunların tətbiqi və müvafiq döyüş tapşırıqlarının icrası, o sırada düşmənin bütün hərbi infrastrukturunun məhv edilməsi üçün nəzərdə tutulan ən müasir silah və hərbi texnikanın praktiki tətbiqinə yönəldildiyini söyləyib.

*****

Azərbaycanın hərb naziri əslində masa üzərindəki işğaldan azad olunma ssenarilərindən danışmaqla düşməni bir daha düzgün seçimə çağırıb, əks təqdirdə sülhü deyil, müharibəni qazanacağını xatırladıb. Belə görünür, Bakının xəbərdarlıq mesajları artıq ünvanına çatıb.

Məsələn, Ermənistan Müdafiə Nazirliyinin polkovniki, "Tiqran Mets" hərbi-təlim mərkəzinin rəhbəri Koryun Qumaşyan Azərbaycan ordusunun iyunun 26-da Bakıda keçirilmiş paradına baxandan, prezident İlham Əliyevin çıxışını izləyəndən sonra bu qənaətə gəlib ki, Qarabağda irimiqyaslı hərbi əməliyyatların başlanması qaçılmazdır (Virtualaz.org).

Onun sözlərinə görə, Ermənistan ildırım sürəti ilə öz silahlarını yeniləməlidir, əks halda gec olacaq. "Müharibə qaçılmazdır. Kiçikdən böyüyə hamı buna hazırlaşmalıdır. Bu, 2016-cı ilin aprel hadisələrinin təkrarı olmayacaq" - erməni polkovnik deyib.

Qumaşyan Azərbaycan ordusunun Naxçıvanda yeni strateji yüksəkliklərdə möhkəmlənməsini və Ermənistan ərazisini Dağlıq Qarabağa birləşdirən yolu nəzarətə götürdüyünü də xatırladıb. "Bu, Azərbaycanın irimiqyaslı müharibəyə hazırlaşmasına dəlalət edir". Onun sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələrinin ən yeni, müasir hərbi texnika ilə silahlanması da gözlənilən müharibənin irimiqyaslı olacağını göstərir. "Hər şey yenilənib, hətta sıra düzülüşü öz nizamına görə Koreya ordusunu xatırladırdı. Müharibədən keçmiş adamlar bütün bunları çox ciddi qəbul edir. Onlar silahları nümayiş etdirdilər. Lakin bu, o demək deyil ki, birbaşa indi hücum edəcəklər. Onlar bunu bu payızda, ya da gələn yaz edəcəklər".

*****

Şübhə yox ki, Bakıdakı möhtəşəm hərbi paradın ardınca Azərbaycanın geniş miqyaslı hərbi təlimlərə başlaması işğalçı tərəfdə təlaşı daha da artıracaq. Unutmaq lazım deyil ki, hazırda Qarabağda hərbi əməliyyatlar aparmaq üçün ən əlverişli mövsüm - yay dövrüdür.

"Bu təlimlərin keçirilməsi, təbii ki, çox müsbət haldır. Çünki ordunun gücü birbaşa silah və təlimlərlə ölçülür. Azərbaycan Ordusunun növbəti irimiqyaslı təlimlərə hazırlaşması əslində çox şeydən xəbər verir". Bunu axar.az-a Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib.

Sabiq nazir budəfəki təlimlərin siyasi əhəmiyyətinə də toxunub: "Azərbaycan Ordusunun keçirəcəyi növbəti təlimlərin məqsəd və hədəfləri bəllidir. Bu təlimlər siyasi baxımdan bir növ işğalçı qüvvələrə təzyiqdir. Hətta onlar da bunu çox yaxşı başa düşürlər. Hesab edirəm ki, Ali Baş Komandan İlham Əliyevin bu qərarı çox təqdirəlayiq bir addımdır və tezliklə öz nəticəsini verəcək. İnanıram ki, genişmiqyaslı hərbi təlimlərdə öz bacarığını yüksəldən Azərbaycana əsgəri qısa zamanda bu gücünü işğalçıya qarşı istifadə edəcək".

"Azərbaycan Ordusu irəlidə düşmənə qarşı psixoloji və hərbi təzyiqlərini daha da artıracaq". Bu sözləri isə ordumuzun növbəti genişmiqyaslı hərbi təlimləri haqda danışan politoloq, deputat Rasim Musabəyov deyib.

"Azərbaycan özünü Dağlıq Qarabağ ətrafında hər an baş verəcək istənilən dəyişikliyə hazır vəziyyətdə saxlayır. Təbii ki, bu fonda Azərbaycan Ordusunun keçirdiyi hərbi təlimlər işğalçını daim qorxu içərisində saxlayaraq təxribatlardan çəkindirir. Bu təlimlər dolayısı yolla ermənilərə psixoloji və hərbi təzyiq xarakteri daşıyır və irəlidə bu siyasətin mühüm nəticəsi olacaq. Hər halda Ermənistan hakimiyyətində olan şəxslərin kifayət qədər avatürist olduqlarını nəzərə alsaq, Paşinyan və komandasının hər cür addıma gedə biləcəyini istisna etmək olmaz. Ona görə də Azərbaycan düşməni yerinə oturtmaq üçün hazır vəziyyətdə olmalıdır", - deyə deputat əlavə edib.

*****

Aydındır ki, müharibə tezliklə olmasa belə, həm hərbi parad, həm də mütəmadi keçirilən və ordumuzun döyüş qabiliyyətini daha da artıran hərbi təlimlər Azərbaycanın Ermənistana davam edən təzyiqidir. Onu ədalətli sülhə sövq eləmək məqsədi güdən güc nümayişidir, güclə hədədir.

Yəqin ki, bunun nəticəsi özünü hələ ki dalanda olan sülh danışıqları bərpa ediləndə, xüsusən də ATƏT-in Minsk Qrupunu həmsədrlərinin yanaşmasında hansısa şəkildə göstərəcək. Hər halda buna ümid edirik. Çünki Bakı işğal rejimi ilə, mövcud status-kvo ilə barışmadığını getdikcə daha qətiyyətli və sərt şəkildə nümayiş etdirməkdədir.

"Müharibə hələ bitməyib. Azərbaycan prezidenti İlham Əliyev parad zamanı da bəyan etdi ki, hazırda atəşkəş dövrüdür və müharibənin ikinci mərhələsi hər an başlaya bilər". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov Modern.az-a açıqlamasında deyib. O bildirib ki, döyüş hazırlığı planlarına uyğun olaraq adətən yaz-yay ayları sıx təlimlər dövrüdür.

"Çünki hava şəraiti və digər amillər təlimlərin keçirilməsi üçün əlverişli şərait yaradır. Azərbaycanın keçirdiyi təlimlər irimiqyaslıdır. Ermənilər heç vaxt 20 minlik şəxsi heyətlə heç vaxt təlimlər keçirməyiblər. Onların bizim kimi təlimlər keçirməyə iqtisadi və digər imkanları yoxdur. Və bu təlimlərin keçirilməsinin nəticəsində ordumuzun döyüş hazırlığı yüksəlir, mütəxəssisləri öz peşələrində daha da peşəkar olurlar. Ona görə də bu gün Azərbaycan Silahlı Qüvvələri 130 ölkə arasında 50-ci yerdədir", - deyə hərbi ekspert qeyd edib.

Ehtiyatda olan polkovnik bildirib ki, müharibə təlimlər zamanı və hər hansı dinc vaxtda da başlaya bilər: "Məsələn, aprel döyüşləri təlimlər zamanı başlanılmadı. Bu gün Ermənistan və Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi təlimlər müharibə şəklinə keçə bilər. Hər kəsə məlumdur ki, dünyanın siyasi arenasında Azərbaycan müəyyən öhdəciliklər götürüb. Azərbaycan hər zaman hüquq normalarına riayət edən dövlətdir. Ona görə də onun dünyada nüfuzu böyükdür. Ancaq Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib ki, Azərbaycan hər an güc yolu ilə işğal altında olan torpaqlarını azad edə bilər. Əgər beynəlxalq aləm və Ermənistan tərəf konstruktiv mövqe tutmasa, müharibə hər an başlaya bilər. Biz buna hazır olmalıyıq".

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

# Seçkilərdən sonrakı Türkiyə - qardaş ölkəni nə gözləyir?

## Toğrul İsmayıl: “24 iyun seçkiləri göstərdi ki…”



**Türkiyədə keçirilən növbədənkənar prezident və parlament seçkilərindən bir həftə ötdü. Qardaş ölkəni bundan sonra nələrin gözlədiyi barədə ən müxtəlif proqnozlar var.**

Buna səbəb də hakim partiya olan AKP-nin təkbaşına parlament seçkilərini qazana bilməməsidir. 600 deputat yerindən 293-nü əldə edən AKP 50%-i birləşdiyi müxalif qurum MHP-nin hesabına keçib. Ekspertlər hesab edirlər ki, gələcəkdə bu iki partiya arasındakı müttəfiqlik pozularsa, avtomatik olaraq müxalifətin deputatları hakim partiyadan daha çox olacaqlar ki, bu da müəyyən qərarların qanunverici orqanda təsdiq olunmamasına və prezidentlə yeni parlament arasında gərginliyə gətirə bilər.

Bu və ya digər məsələləri qardaş ölkədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayılla dəyərləndirdik.

Toğrul bəy seçkilərdən sonrakı Türkiyəni dəyərləndirməyin tez olduğunu söylədi: “Son günə qədər mən də daxil, çoxları ikinci turun olacağını deyirdi. Sorğulardan çıxış edərək belə fikirlər səslənirdi. Seçkilərdən öncə sorğulardan fərqli nəticələr ola biləcəyini deyirdim. Seçki günü türk xalqı sürpriz etdi. Xüsusilə, MHP ilə bağlı sürpriz gözlənilməz oldu. Çoxları düşünürdü ki, parlamentdə MHP tərəfdarları partiyaya səs versələr də, prezidentlikdə bunlar olmayacaq. Amma tam fərqli şeylər baş verdi. MHP açıq şəkildə prezident seçkilərində iqtidarı dəstəklədi. Rəcəb Tayyib Ərdoğan MHP-nin dəstəyi ilə səslərin 52%-ni aldı. Türkiyə seçicisi seçkiləri uzatmadı. Türk xalqı öz iradəsini ortaya qoydu. Bu gün dəyərləndirə biləcəyimiz əsas məsələ budur. Digər məsələlərdən danışmaq hələ tezdir. Ən yaxını 100 gündən sonra dəyərləndirə bilərik. Parlamentdə qarşıdurma olmur. Sadəcə, fərqli fikirlər səslənir ki, bunu qarşıdurma kimi qələmə vermək doğru deyil. Ola bilər ki, mən Türkiyədə yaşadığım üçün belə düşünürəm. Parlament zatən fərqli düşüncələrin yeridir, orada bütün təbəqələrin təmsilçiləri olur. Parlamentdə fikir ayrılığı aradan qaldırılanda bu cəmiyyətə də yansıyır. Prezidenti xalq seçir və o xalqın təmsilçisidir. Bu baxımdan xalqın istəklərinə uyğun şəkildə parlamentdə qərarlar qəbul olunur. Bunun əksi olduqda, bu bəlli bir qrupun maraqlarının təmsil olunması deməkdir. Ərdoğanın türk xalqının bütün təbəqələrini anlayıb, buna uyğun qərarlar çıxaracağını düşünürəm”.

Politoloq onu da qeyd etdi ki, hazırkı Türkiyə parlamentinin əvvəlkilərdən fərqlənib-fərqlənməyəcəyini zaman göstərəcək: “Burada qorxmağa bir əsas yoxdur. Əslində son seçkilər Türkiyə gerçəklərini göstərdi, quruluşu, strukturu əks olundu. Bu quruluşu istənilən siyasi lider göz önünə gətirməlidir ki, Ərdoğan hər zaman bundan məharətlə istifadə edə bilib. Son seçkilərdən sonrakı durumu dəyərləndirmək üçün müəyyən zaman getməlidir. Böyük çoxluğu qane edəcək qərarlar parlamentdə müzakirə edilərsə, qəbul olunarsa, qanunverici orqan ciddi bir böhran yaşamaz. İstənilən parlamentdə dövlətin bütövlüyünə qarşı olan fikirlər yolverilməzdir. Bunlar Türkiyədə mütləq nəzərə alınacaq”.

T.İsmayıl Türkiyə müxalifətinin acı məğlubiyyətinə bu cür şərh verdi: “Üç müxtəlif qrup birləşmişdi. Bunu unutmamaq lazımdır. İqtidar olmağın həm avantajı, həm də dezavantajı var. Hər kəs iqtidardan bir pay alacağı düşüncəsi ilə gəlirsə, müxalifətdəkilərin belə bir şansı yoxdur. Düşünürəm ki, CHP prezident seçkilərini qazana bilməyəcəyini anladığı üçün parlamenta İyi və Səadət Partiyasını, eləcə də, HDP-ni soxmaq üçün əlindən gələni etdi. Buna görə səsi az oldu. Meral Akşenerə böyük ümidlər var idi. Amma onun partiyası yeni olduğu üçün gözləntiləri doğrultmadı. Ərdoğan da onu özünə rəqib etməmək üçün əlindən gələni etdi, onu gündəmə gətirmədi. Akşener sağ mərkəzçi olduğu üçün uğur qazana bilmədi. 15-20% səs alacağı gözlənilsə də, 10,5-dən aşağı səs aldı. Amma yeni qurulmuş bir partiyanın parlamentdə keçməsinin özü də bir uğurdur. Hazırda məclisdə əsas partiyalardan biri halına gəlib. Vəziyyəti kontrol edə biləcək söz sahiblərindən birinə çevrilib. Parlamentdə uduzan yoxdur. Az və ya çox dərəcədə hər qurum öz faizini alıb. Sonunda qazanan türk xalqıdır. Bu seçkilər bir daha göstərdi ki, Türkiyədə seçkilər demokratik şəkildə keçir”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

---

**ABŞ Dövlət Departamenti növbəti dəfə öz vətəndaşlarına Türkiyəyə səfər etməməyi tövsiyə edib. Bu barədə ABŞ Dövlət Departamentinin bəyanatında bildirilir.**



# ABŞ-dan Türkiyəyə qadağa: Departamentdən müəmmalı çağırış

## Nəzakət Məmmədova: “Xəbərdarlıq Ankaraya qarşı artan basqıların növbəti nümunəsidir”

Qeyd edək ki, ABŞ vətəndaşlarına xəbərdarlıq bundan əvvəl də, yanvarın 10-da edilmişdi. Lakin budəfəki xəbərdarlıqda yeni səbəblər yer alıb: “Terror və qanunsuz saxlanılmalar təhlükəsi olduğundan Türkiyəyə səfər etməməyi tövsiyə edirik”. Departament ABŞ vətəndaşlarına xüsusən Türkiyə-Suriya sərhədinə və ölkənin 15 cənub-şərq əyalətlərinə səfər etməməyi məsləhət görüb. Tövsiyəyə baxmayaraq Türkiyəyə səfər edənlər əcnəbilərin daha çox olduğu yerlərdən, aksiyalar keçirilən ərazilərdən uzaq olmağa, təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkil olunduğu otellərə üstünlük verməyə çağırılıb.



Türkiyədəki növbədənkənar prezident və parlament seçkilərindən sonra belə bir çağırışın edilməsi maraq doğurur. Təhlükəsizlik üzrə ekspert Nəzakət Məmmədova bildirdi ki, Departamentin bu xəbərdarlığı seçkilərdən sonra Türkiyəyə qarşı aparılan kampaniyanın növbəti təzahürüdür: “Seçki ərəfəsində və seçkilərdən dərhal sonra Türkiyəyə qarşı artıq gördüyümüz kimi təzyiqlər daha da güclənib. Bir neçə gün əvvəl ABŞ Türkiyənin Rusiyadan S-400 alacağı təqdirdə ona qarşı sanksiyalar tətbiq edə biləcəyini açıqlamışdı. Ardından isə bu xəbərdarlıq Türkiyəyə qarşı artan davamlı basqıların daha bir nümunəsidir. ABŞ Ərdoğanın qələbəsindən narahatdır və bunu qəbul etmədiyini bu cür bəyanatlarla sübut edir. Ərdoğanın yenidən seçilməsi, üstəlik, bu dəfə daha da güclənmiş və bütün səlahiyyətləri əlində cəmləşdirmiş halda hakimiyyətdə qalması Qərbi narahat edir. Bu, ABŞ və Yaxın Şərqdəki müttəfiqlərinin, eləcə də bəzi Avropa ölkələrinin ”Daha Böyük Orta Şərq" şərti adı verilən, əslində isə “Soyuq müharibə”dən sonra Yeni Dünya nizamı qurmaq planlarının məhv olması deməkdir. Ərdoğanın hakimiyyətdə qalması Orta Şərqin olduqca əhəmiyyətli ölkəsi olan Türkiyənin bu plana mane olaraq müqavimət göstərməsinə səbəb olacaq. ABŞ, İngiltərə, Fransa 100 il əvvəl də yeni dünya düzənini məhz Osmanlını parçalayaraq həyata keçirmişdi. Sayks-Piko, Sevr müqavilələri ilə buna nail olmağa çalışmışdı. Bu gün də Türkiyəni parçalayaraq növbəti yüzillikdə Yeni dünya nizamı formalaşdırmaq istəyirlər. Ərdoğan isə region ölkələri arasında, elə dünyada da buna mane olan ən böyük liderlərdən biridir. Təbii ki, Putinin də bu işdə haqqı tanınmalıdır. ABŞ bu cür xəbərdarlıqları bir qayda olaraq o zaman edir ki, o ölkə Birləşmiş Ştatların mənafeyinə deyil, öz milli maraqlarına uyğun olan addımlar atsın. Bu zaman o ölkənin beynəlxalq nüfuzunu müəyyən qədər azaltmaq, guya dövlətin əcnəbilərin təhlükəsizliklərini lazımı dərəcədə təmin etmək iqtidarında olmadığını sübut etmək üçün, turist qəbul edərək büdcəsini artırmaq və s. qarşısını almaq üçün bu cür bəyanatlar verilir. Lakin ən əsas məqsəd siyasi təzyiq vasitəsidir".

N.Məmmədova onu da vurğuladı ki, Azərbaycanın özü də dəfələrlə ABŞ Dövlət Departamentinin bu cür xəbərdarlıqlarına məruz qalıb: “Ölkəmiz ABŞ mənafeyinə zidd beynəlxalq enerji, kommunikasiya layihələri həyata keçirən dövrlərdə yüksək riskli ölkələr sırasına aid edilib. Halbuki vətəndaş iğtişaşlarının baş verdiyi, dövlət çevrilişlərinin, dövlət orqanlarına silahlı basqınların olduğu qonşu Gürcüstan və Ermənistan daha az riskli ölkələr sırasına aid edilib. Azərbaycan nəinki Cənubi Qafqazda, postsovet məkanında, hətta dünyada ən sabit, əmin-amanlığın hökm sürdüyü ölkələrdən biridir. Ölkəmizin də, hazırda Türkiyənin olduğu kimi bu cür xəbərdarlıqla üzləşməsi siyasi məqsəd daşıyır. Bu xəbərdarlığın heç bir əsası yoxdur. Türkiyədə hazırda fövqəladə vəziyyət rejimi hökm sürür, əməliyyat şəraiti hüquq-mühafizə orqanlarının tam nəzarəti altındadır. Ölkədə baş tutan seçkilər tam demokratik, əmin-amanlıq şəraitində keçib, müxalifət seçkilərin nəticəsini tanıyıb, narazılıq, iğtişaş olmayıb. Belə olan halda bu xəbərdarlığın mənası nədir? Bir məqamı da unutmayaq ki, bəzən ABŞ belə xəbərdarlıqlar etdikdən sonra elə olub ki, Türkiyədə terror aktları baş verib. Burada iki ehtimal var ya ABŞ kəşfiyyatı terror barədə məlumatlı olub, lakin bu barədə Türkiyə tərəfini xəbərdar etməyib - baxmayaraq ki, iki ölkə arasında həm ikitərəfli əməkdaşlıq, həm də NATO çərçivəsində terrorçuluğa qarşı mübarizə sahəsində qarşılıqlı məlumat mübadiləsi barədə razılaşmalar var. Terror təhdidi varsa, ölkələr mütləq bir birini xəbərdar etməlidir. Necə ki, Türkiyə Avropa ölkələrini terror barədə xəbərdar etdi və doğurdan da Fransa və Belçikada terror aktları törədildi, yaxud ABŞ Rusiyanı Sankt-Peterburqda planlaşdırılan terakt barədə əvvəlcədən xəbərdar etdi. Sual olunur ki, ABŞ Dövlət Departamenti nəyə əsasən Türkiyədə terror xəbərdarlığı edib? Əgər əlində tutarlı faktlar varsa, bu məlumatı Türkiyəyə ötürübmü? Doğrudur, PKK seçkilərdən öncə, Türkiyə ordusu Kandildə hərbi əməliyyatlar başlayan dövrdə Türkiyəni terrorla hədələyib. Türkiyə hər an terrora məruz qala biləcək ölkədir. Lakin artıq uzun müddətdir ki, ölkədə terror baş vermir. Doğrudur, ABŞ səfirliyi bundan əvvəl də dəfələrlə öz vətəndaşlarına Türkiyəyə getməmək xəbərdarlığı edib, eyni zamanda ola bilsin ki, Türkiyədəki səfirliyinə və konsulluğuna məxfi direktiv göndərərək Türkiyədəki Amerika şirkətlərinə, habelə oradakı vətəndaşlarına zərurət olmadığı hallarda xüsusən bayram günlərində insanların sıx toplaşdığı yerlərdən, əyləncə məkanlarından uzaq durmağı tövsiyə edib. Adətən belə hallarda hökumət binaları, ictimai binalar, hərbi obyektlər, xarici səfirliklər, xarici şirkətlər, banklar, ibadət və turizm yerləri daha çox hədəf obyekti ola bilər. ABŞ səfirliyinə Vaşinqtondan göndərilən, Dövlət Departamenti və Mərkəzi Kəşfiyyat İdarəsinin məxfi qrifli direktivlərində yəqin ki, bunlar hamısı detallı şəkildə göstərilir. ABŞ elə bir dövlətdir ki, onun istənilən bəyanatı məqsədindən asılı olmayaraq gözardı edilə bilməz. Bu baxımdan yəqin ki, heç şübhəsiz Türkiyə də bunu diqqətə alacaqdır. Üstəlik də hər tərəfdən atəş çənbərində olduğu bir dövrdə ABŞ xəbərdar etdi-etmədi, Türkiyə daima terrora qarşı aldığı tədbirləri ən yüksək səviyyəyə çıxaracaqdır. Türkiyədə əvvəlki illərdə adətən turizm mövsümündə teraktlar çox olub deyə ABŞ bununla əsaslandıra bilər. Lakin son dövrlərdə teraktların sayı azalıb. Ona görə də bu xəbərdarlıq daha çox seçki ilə əlaqəli görünür”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Braziliya-Meksika: 42-ci qarşılaşmanın qalibi kim olacaq?

## Bu gün mundialda növbəti 1/8 oyunları olacaq; Yaponiya ilə qarşılaşan Belçika 22 oyundur uduzmur...

**Rusiyada davam edən futbol üzrə dünya çempionatında bu gün növbəti 1/8 qarşılaşmaları olacaq. Saat 18:00-da Braziliya və Meksika münasibətlərini aydınlaşdıracaqlar. Saat 22:00-da isə Belçika və Yaponiya qarşılaşması başlayacaq.**



### 42-ci dəfə kim qalib gələcək?

Bu mundialda Braziliya və Meksika millisi qədər bir-birlərini yaxşı tanıyan çətin ki, ikinci komanda olsun. Cənubi Amerikanın bu iki təmsilçisi indiyədək düz 41 dəfə üz-üzə gəliblər. Bu qarşılaşmaların tarixi 1950-ci il mundialından başlayır. Eyni qrupda mübarizə aparan milli komandaların ilk görüşündə Braziliya 4:0 hesabı ilə qalib gəlib.

Xatırlayırsızsa, bundan əvvəlki mundialda Meksika bu axşamkı rəqibləri ilə yenə bir qrupa düşmüşdülər. Həmin oyunda isə tərəflər qapılara qol vurmadan meydandan ayrılmışdılar. Ümumiyyətlə, 41 qarşılaşmanın 24-də Braziliya millisi üstün olub. Yalnız 14 görüşdə Meksika qalib gəlib. Sonuncu dəfə bu komandalar 2015-ci ildə yoldaşlıq görüşündə güclərini sınayıblar. Braziliya həmin oyununda 2:0 hesabı ilə qalib olub.



Beşqat dünya çempionu Braziliya öz qrupunda 7 xalla birinci yeri tutub. Braziliya ilk oyunda İsveçlə heç-heçə edib(1:1). Həmin oyun braziliyalı azarkeşlərdə böyük məyusluq yaratdı. Braziliya mundialdakı ilk oyunda Kountinyonun vurduğu qoldan sonra hesabı saxlamağa çalışdı. İsveç isə hesabı bərabərləşdirirək onlardan iki xal "oğurladı". Kosta- Rika ilə qarşılaşmada isə 90-cı dəqiqədə hesab açılmamışdı, yalnız əlavə olunmuş vaxtda Braziliya 2 qol vuruldu. Serbiyaya 2:0 hesablı qalibiyyət də asan olmadı.

Braziliya ev sahibliyi etdiyi 2014-cü il mundialında da indiki kimi parlaq çıxış etmirdi və finala gedib çıxa bilmədi. Bu mundialda da Braziliya fərqli oyun nümayiş etdirmir. Əlbəttə, onların püşkdə bəxti gətirmişdi və rəqibləri çox güclü deyildilər. Braziliya tənqidlərə rəğmən, minimum planı yerinə yetirdi.

Bu 3 görüşdə qapılara 5 top vursalar da, Neymar, Paulinyo, Fernandinyo və Firmonyo kimi ulduz futbolçular komandanı arxaları ilə apara bilmirlər. Yalnız Neymar effektlik yıxılmağı və artistlik bacarığı sayəsində özündən söz etdirə bilir.

Meksika qrupda ilk oyunu Almaniyaya qarşı keçirdi və minimal hesabla qalib gələrək ilk 3 xalı aktivinə yazdırdı. İkinci turda da Cənubi Koreyanı məğlub edərək (2:1) 1/8-ə vəsiqəni təmin etmiş oldu. Son turda isə Meksika gözlənilmədən İsveçə böyük hesabla (0:3) məğlub oldu.

Almaniya üzərində qələbədən sonra Meksikanı da bu mundialda dünya kubokuna iddiaçılar sırasına yazanlar oldu. Almaniya ilə oyunda Meksika doğrudan da həm hücumda, həm müdafiədə rəqiblərindən fərqlənirdi. Amma sonra məlum oldu ki, əslində Meksikanın qələbəsini o qədər də şişirtmək, uzaqgedən nəticələr çıxartmaq tələskənlikdir. Meksikanın haqqına girmədən qələbədə əsas səbəb Almaniyanın bərbad oyunu qeyd edilməlidir.

Meksika bu mundialda ən təcrübəli komandalardan biridir. 7-ci dəfədir ard-arda mundiala vəsiqə qazanan meksikalılar hər dəfə də qrupdan çıxmağı bacarıblar. Qrupdakı son məğlubiyyət Meksika millisinin müdafiə xəttində hər şey qaydasında olmadığını göstərdi. Meksikanın hücum xəttində Xavyer Ernandes və Raul Xmines kimi Avropa klublarında oynayan futbolçular mundialda zəif çıxış edir. "Çiçarito" kimi tanınan Xavyer Ernandesin artıq 30 yaşı var və bu, onun üçün son mundialdır. Bu gün isə bəlkə də son şans...

### Belçika 22 oyundur uduzmur

Belçika və Yaponiya millisi indiyədək 5 dəfə qarşılaşıblar. Bu qarşılaşmaların birində Avropa təmsilçisi qalib gəlib. İki oyunda isə rəqibləri güclü olub. İlk belə oyun 1999-cu ildə Klin Kuboku çərçivəsində olub. Oyunda hesab açılmayıb. 2002-ci ildə isə ilk dəfə mundialda bir qrupda mübarizə aparıblar. Həmin görüş isə 2:2 hesabı ilə başa çatıb. Son olaraq ötən il Brüsseldə yoldaşlıq görüşündə qarşılaşıblar ki, bu oyunda meydan sahibləri 1:0 hesabı ilə qalib gəliblər.

Belçika FİFA reytinqində 3-cü sırada, rəqibləri isə 61-ci yerdə qərarlaşıblar. Gündoğan ölkənin təmsilçiləri bu mundialda autsayderlər sırasında göstərilirdi. Yaponiya 21 mundialdan yalnız 6-da iştirak edib. Buna qədər həm ev sahibi olduqları 2002-ci il, həm 2010-cu il mundialında 1/8 finala çıxa biliblər. Beləliklə, 6 dəfə mundialda iştirak edən yaponlar üç dəfə qrup mərhələsini keçə bilirlər. Belə autsayder olmur...

Yaponiya Seneqal, Polşa və Kolumbiya kimi komandalarla bir qrupda oynadıqları üçün onlar doğrudan da autsayder hesab oluna bilərdilər. Amma Yaponiya ilk oyunda Kolumbiyanı məğlub etdi. Seneqalla mübariz heç-heçə edən Yaponiya son turda qrupda iki oynu uduzan Polşanın qəzəbinə gəldi. Minimal hesablı məğlubiyyətə baxmayaraq, Senqalla xalları bərabərləşdi. Yalnız sarı kartların sayına görə onlar Seneqalı qrupdan evə göndərdilər. Halbuki Seneqal Belçikaya daha layiqli rəqib ola bilərdi.

Yaponiyanın bura qədər gəlməsi artıq bu komanda üçün uğurdur. Onlar Belçika ilə oyunda bütün gücləri ilə mübarizə aparacaqlar. Əslində bu cür qəliz rəqiblərlə qarşılaşma asan olmur. Amma Belçikaya sürpriz edəcəkləri o qədər də real deyil. Yaponlar cəhd edəcək, amma növbəti mərhələyə Belçikanın çıxacağı gözlənilir...





Belçika rəqiblərindən fərqli olaraq 1/8 mərhələyə yüz faizlik nəticə ilə vəsiqə qazanıb. "Qırmızı ilbizlər" hər üç oyunda qalib gəliblər. Komanda seçmə mərhələdəki kimi məhsuldar oynayır. Bu komanda 6-cı dəfədir 1/8-ə finala çıxır. Komanda ötən mundialda da mübarizəni 1/4 mərhələdə dayandırıb. Belçika artıq 22 oyundur uduzmur. Bekçika sonuncu dəfə 2016-cı ildə İspaniya ilə yoldaşlıq görüşündə məğlubiyyət acısını dadıb.

**❑ Nazim Sabiroğlu, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

**İsti yay mövsümündə yaşanan problemlərdən biri də zəhərlənmələrdir. Bəzən bu zəhərlənmələrin ölümlə də nəticələndiyinin şahidi oluruq. Bəs zəhərlənmlər nədən və necə yaranır, onlardan qorunmaq üçün nə etməli?**

# Yayda qida zəhərlənmələri - bunları hamının bilməsi vacibdir

## Diyetoloq Leyla Zülfüqarlı: "Qidaları qarışdırmaq da zəhərlənməyə gətirə bilər..."

Ekspertlər qeyd edirlər ki, yay mövsümündə əsasən ət və süd məhsulları, quş əti, kolbasa, dondurma, mayonez və souslu yeməklər, kremli tortlar, bir müddət quruda qalmış dəniz məhsulları, eləcə də qarpız və yumurta kimi qidalardan istifadə zamanı zəhərlənmələr yaşana bilir. Əsasən zəhərlənmələr ishal, ürək bulanması, qusma və mədə ağrıları ilə özünü büruzə verir.

Adətən qida zəhərlənməsi bir neçə günə aradan qalxır. Lakin təəssüf ki, bəzən zəhərlənmələr ağır fəsadlara gətirib çıxarır. Bunun üçün də tövsiyə olunur ki, yay mövsümündə soyuducularda ərzaqları ehtiyatla saxlamalı, qidaların son istifadə tarixi diqqətlə yoxlanılmalıdır.

Yay mövsümündə xüsusən də uşaqlar arasında dondurmadan zəhərlənmələr müşahidə olunur. Bu günlərdə Qida Təhlükəsizliyi Agnetliyi vətəndaşlara xəbərdarlıq edərək bildirib ki, dondurma alarkən son dərəcə diqqətli olmaq lazımdır. Qurumun əməkdaşı Mansur Piriyev bu barədə mətbuata açıqlamasında bildirib: "Məhsulun istehsal və son istifadə tarixinə fikir verilməlidir. Əhali rəngli dondurmalara xüsusi diqqət yetirməlidir. Məsələn, sarı rəngdə olan dondurma limonlu dondurma sayılır. Ancaq istehlakçı bilməlidir ki, əgər dondurmanın rəngi tünd sarıdırsa, orada rəngləndiricidən istifadə olunub. Çünki limon əlavə edilmiş dondurma ağ rəngdən sarıya nadir hallarda çevrilə bilər, tünd sarı ola bilməz. Dondurmalara vurulan bu sintetik rəngləndiricilər allergik xəstəliklərə yol aça bilər. Dndurma marketlərdə tələb olunan qaydalarda saxlanmalıdır. Dondurmanın qabı əzilmişsə, deməli, əriyib və sonra təkrar dondurulub. Yenidən dondurulma isə məhsulun dadına mənfi təsir göstərir və zəhərlənmə təhlükəsini artırır. Dondurma etiketdə qeyd edilmiş temperaturda saxlanılmalı, üzərinə birbaşa günəş şüaları düşməməlidir. Dondurmanın saxlanıldığı soyuducunun üzəri qoruyucu örtüklə örtülməlidir. Dondurmalar digər qida məhsulları (toyuq, balıq məhsulları və s.) ilə eyni soyuducuda saxlanmamalıdır".



Yay mövsümündə qarpızdan zəhərlənmə az qala adi hala çevrilib. Ekspertlər qeyd edir ki, qarpız zəhərlənməsi qida zəhərlənmələri arasında ən təhlükəlisi sayılır. Qeyd olunur ki, gün altında satılan qarpız insan orqanizmi üçün təhlükəlidir. Qarpız-yemiş qaydaya əsasən sərin yerdə saxlanılmalıdır. Lakin bir çox satıcılar buna əməl etmir və bu da fəsadlara yol açır.

Alınan qarpız mütləq şəkildə digər meyvələr kimi yuyularaq doğranılmalıdır. Nəzərə alınmalıdır ki, qarpız torpaqda bitir və açıq havada satılır. Adətən alıcılar onu yumadan kəsir. Bu zaman qarpızın üstündəki mikroblar içinə düşür və bu mikroblar bir neçə müddətdən sonra insan orqanizmində özünü büruzə verməyə başlayır, zəhərlənmə baş verir.

Həkimlər bildirir ki, qarpızdan zəhərlənmə zamanı zərərçəkən süni şəkildə qusdurulmalı, imalə olunmalı, toksinlər bədəndən xaric edilməlidir. Zəhərlənən şəxsin çoxlu maye qəbul etməsi məsləhətdir. İlkin yardım kimi bunu ev şəraitində etmək olar və bu proses özü həkim yardımı qədər vacibdir. Bundan sonra xəstə hökmən xəstəxanaya çatdırılmalıdır. İstənilən zəhərlənmə zamanı həkimə müraciət edilməlidir ki, sonra onun fəsadları əziyyət verməsin.

Ekspertlər qeyd edir ki, yay mövsümündə, xüsusən də anormal istilər olduğu zaman konservləşdirilmiş qidalardan az istifadə edilsin. Bu cür qidalardan zəhərlənmələr bəzən ağır nəticələrə gətirib çıxarır.

Daha nələrə diqqət etməliyik?

Diyetoloq Leyla Zülfüqarlı bu haqda "Yeni Müsavat"a danışdı: "Ümumiyyətlə, elə qida növləri var ki, mövsümdən asılı olmayaraq onların bir-birinə qatılması zəhərlənmələrə yol açır. Yay mövsümündə bir çox qidaların daxilində bakteriyalar yarana bilir, bu da doğrudan da təhlükəli olur, insanları xəstəxanaya qədər apara bilir. Çox zaman deyilir ki, yayda balıq yeyilməz. Lakin bildiyimiz kimi dünyanın bir çox ölkələrində isti yay mövsümündə belə balıq yeyilir. Sadəcə, diqqət etmək lazımdır ki, balığın saxlanılma şəraiti araşdırılsın, düzgün bişirilsin. Ümumiyyətlə balıq tez xarab olan qidadır və isti mühitdə bu qida düzgün saxlanılmalıdır. Bunun üçün də balıq qidalarından mümkün qədər ehtiyatlı olmalıyıq. Həmçinin, tez-tez rastlaşırıq ki, bir çox meyvələr süfrəyə verilərkən bir qabda qoyulur. Məsələn, giləmeyvələrlə gilasın birlikdə qoyulması və yaxud qəbulu fəsadlar yarada bilir. Bunun üçün də meyvələr süfrəyə tək halda qoymalı, hətta soyuducuda belə ayrı-ayrı hissələrdə yerləşdirilməlidir. Bildiyiniz kimi yay mövsümündə meyvələrdən də zəhərlənmələr baş verir. Beləliklə tövsiyə olunur ki, meyvələr soyuducuda ayrı-ayrılıqda saxlanılsın və ən əsası mütləqdir ki, qəbul edilərkən yuyulsun. Qarpızdan zəhərlənmələr isə adi hala çevrilib. Mütləqdir ki, qarpız öz mövsümündə yeyilsin. Əks halda parnik şəraitində yetişdirilən qarpızlar təhlükəli olur. Çünki onun yetişməsi üçün kimyəvi maddələr vurulur.

Yayda dondurmalardan da zəhərlənmələr tez-tez baş verir. İlk öncə diqqət etmək lazımdır ki, dondurmadan əvvəl hansı qida qəbul edilib. Məsələn, yeməyin üstündən dərhal dondurma qəbul etmək olmaz. Bu qidanı yeməkdən iki saat sonra və ara müddətlərdə qəbul etmək lazımdır. Ayran, dondurma kimi qidaların saxlanma müddəti 4-5 gün olur. Bunun üçün də dondurmaları alarkən tarixinə mütləq şəkildə diqqət etmək lazımdır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Anomal istilərdə günvurmadan necə qorunmalı?

## Ən böyük risk qrupu 5 yaşdan kiçik uşaqlar, 65 yaşdan böyük insanlar, diabet və təzyiq xəstələridir

**Artıq bir neçə gündür ki, ölkədə, xüsusən də paytaxt Bakıda anormal istilər müşahidə olunmaqdadır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti əhaliyə xəbərdarlıq edərək bildirib ki, Bakıda və Abşeron yarımadasında kəskin istilər iyulun 2-dək davam edəcək. Belə ki, havanın temperaturu 35-38, bəzi yerlədə hətta 42 dərəcə olacaq.**



Təbii ki, kəskin istilər müşahidə olunduğu müddətdə günvurmalar qaçılmazdır. Artıq yay mövsümü başlanandan 16 nəfər günvurma ilə əlaqədar olaraq paytaxtın təcili yardım stansiyalarına müraciət edib. Bəs günvurma nədir? Ondan qorunmağına yolları hansılardır?

Öncə onu qeyd edək ki, anomal istilər dünyanın bir çox ölkələrində müşahidə olunmaqdadır. Bu cür istilərin baş vermə səbəbi müxtəlif cür izah olunur. Məsələn, rusiyalı alim, geologiya-mineralogiya elmlər doktoru Vladimr Sıvorotkinin sözlərinə, görə anomal hava şəraitinə səbəb Yerin təkindəki baş verən proseslərdr. Onun fikrincə, bu proseslərin əsasında təkcə insan fəaliyyəti deyil, ilk növbədə Yerin nüvəsində gedən dövri proseslərdir. Hazırda üç böyük ozon dəliyi var. Onlar Yaponiya, Cənub-Qərbi Sibir və Qara dəniz sahilləri üzərində yerləşir. Bu səbəbdən son vaxtlar həmin bölgələrdə çox gücül istilər baş verir.

İnsan bədəni üçün normal temperatur 36-37 dərəcə sayılır. Artıq temperatur 40 dərəcəyə qalxdıqda dəridə genişlənmə baş verir ki, bunun da nəticəsində buxarlanma yaranır, beyində termorequlyasının pozulması yaranır. Orqanizm artıq bu prosesi tənzimləyə bilmədiyi üçün qan dövranı pisləşir, günvurma riski yaranır. Günvurmaya bütün insanlar məruz qala bilər, lakin risk qrupu əsasən 5 yaşdan kiçik uşaqlar və 65 yaşdan böyük insanlar, şəkərli diabet, arterial hipertenziya kimi xroniki xəstəliyi olan şəxslər və açıq havada günəş altında işləyən şəxslərdir.

Günvurmanın əsas əlamətləri kimi kəskin başağrısı, başgicəllənmə, halsızlıq, ümumi zəiflik, ürəkbulanma, qusma, bədən temperaturunun 40 dərəcədən çox yüksəlməsi, dərinin qızarması və quruması, nəbzin tezləşməsi, ürək ritminin pozulması, tezləşmiş və səthi tənəffüs, qulaqlarda küy, ağır hallarda qıcolma və huşun pozulmalarıdır. Günvurmanın əsasən 3 növü olur - yüngül, orta və ağır dərəcəli günvurma. Yüngül günvurmada ürəkbulanma, göz bəbəklərinin genişlənməsi, təngnəfəslik, nəbzin döyünməsinin sürətlənməsi, baş ağrıları ilə müşahidə edilir. Orta dərəcə günvurmada kəskin baş ağrıları, qaytarma-qusma, qulağın batması, son dərəcə halsızlıq, bədəndə temperaturun artması, huş itirmə halları ilə müşahidə olunur. Günvurmanın ağır forması hətta ölümlə nəticələnə bilir. Kəskin halsızlıq, temperaturun 40 dərəcədən yuxarı qalması, nəcis və sidiyin qeyri-iradi şəkildə xaric olunması, qarabasmaların gözə görünməsi, koma ilə müşahidə olunur.

Günvuran insana ilk təcili yardımı necə etməli? Həkimlər bildirir ki, günvurma zamanı ilkin yardım kimi zərərçəkəni kölgəyə və ya sərin yerə aparmaq, başı yuxarı olmaqla uzatmalı, əgər əynində dar paltarlarlar varsa onları çıxartmalı, sərin su vermək, alın və qoltuqaltı, digər iri damarlar keçən nahiyələri soyuq su ilə silmək, daha sonra isə zərərçəkəni dərhal həkimə çatdırmaq lazımdır. Xüsusən də zərərçəkəndə qıcolma, huşun pozulması hallar varsa, mütləq şəkildə tibbi müdaxilə gərəkir.

Günvurmaya məruz qalmamaq üçün isə bir çox tövsiyələr var ki, onlara əməl etmək lazımdır. Ekspertlər qeyd edir ki, anomal istilərin olduğu zamanlarda çalışmaq lazımdır ki, saat 11:00-16:00 radələrində günəş altına çıxılmasın. Küçəyə çıxarkən isə gündən qorunmaq üçün baş örtüklərindən istifadə etməli və ya çətir götürmək lazımdır. Əsasən kətan və pambıqdan hazırlanan papaq və ləçəklərdən istifadə olunması tövsiyə edilir. Dar, sintetik paltarlardan imtina etmək, bədəndən istiliyin çıxmasına mane olmayan pambıq və kətan parçalardan tikilmiş geyimlərə üstünlük vermək lazımdır. Alkoqollu içkilərdən xüsusən uzaq durmaq lazımdır.

İsti yay mövsümü həm də çimərlik mövsümü deməkdir. Günvurmalar əsasən elə çimərliklərdə müşahidə olunur. Bunun üçün də çimərliyə ya səhər, ya da günortadan sonra getmək məsləhət olunur. Çimərliyə ilk gedilən gün isə gün altında 15 dəqiqədən çox qalmaq olmaz.

Qidalara gəldikdə isə daha çox maye qəbul olunması tövsiyə olunur. Lakin maye qəbul edərkən qazlı, energetik içkilərdən uzaq durmalı, daha çox adi su və ya meyvə şirələrindən istifadə etmək lazımdır.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



# Xaçmazda faciə: Xəzər dənizi daha bir can aldı

**Xəzər dənizinin Xaçmazın Müqtədir qəsəbəsi sahillərində bir nəfər dənizdə batıb. Quba rayon sakini Səttərov Alim Rizvan oğlu sudan çıxarılaraq aidiyyatı üzrə təhvil verilib.**

Dünyasını dəyişən şəxs Qafqaz Müsəlmanları İdarəsinin Quba nümayəndəliyinin rəhbəri Naib Səttərovun qardaşı oğludur.

Qeyd edək ki, ötən gün daha iki nəfər Müqtədir qəsəbəsində dənizdə batıb. Onlardan birinin meyiti tapılıb, digər şəxsin axtarışları davam etdirilir.

YENİ MÜSAVAT
N 140 (7029) 2 iyul 2018

**Son vaxtlar Bakıda tıxac problemi hər kəsi narahat edir. Səhərlər və axşamlar saatlarla yolda qalan insanlar nəinki vaxtlarını, eyni zamanda ciddi miqdarda pullarını da itirirlər. Təkcə benzin pulu yox, həm də...**

# Onlar tıxacdan belə qurtulublar

## Dünya şəhərlərinin tıxac zamanı itirdikləri və bundan ilginc çıxış yolları




### Yolda itirilən vaxt iş gününün bir hissəsi sayılır

"Yeni Müsavat" mövzunun aktual olduğunu nəzərə alıb, tıxacda itirdiklərimiz barədə ilginc bir arayış hazırlayıb. Öncə ondan başlayaq ki, Avropada bəzi işçi kateqoriyaları üçün yolda itirilən vaxt artıq iş gününün bir hissəsi sayılacaq və müvafiq olaraq ödəniləcək. Avropa İttifaqının bu qətnaməsi sabit iş yeri olmayan işçilər üçün, məsələn, elektriklər, sosial işçilər, kommivoyajerlər üçün keçərlidir.

Avropa İttifaqı bu qərara İspaniyanın "TYCO" şirkəti ilə bağlı məsələdən sonra gəlib. Bu şirkət mühafizə qurğularının quraşdırılması ilə məşğuldur.

Belə ki, 2011-ci ildə şirkət bütün regional ofislərini bağlamışdı. Bundan sonra şirkətin əməkdaşları hər gün müştəriləri ilə görüşmək üçün evlərindən 100 km-ə yaxın məsafə qət etməyə məcbur olurdu. İşçilərin yollara sərf etdikləri bu bir neçə saatı şirkət istirahət vaxtı kimi qiymətləndirirdi. Lakin məhkəmə bunu işçilərin hüquqlarının pozulması hesab etmişdi. Avropa məhkəməsinin qərarına digər ölkələrin sakinləri paxıllıq edə bilər. Məsələn, ABŞ-da belə qərar hələlik yoxdur. Miçiqan Universiteti bununla bağlı tədqiqat aparıb və nəticədə hansı şəhərlərin sakinlərinin evdən ofisə çatmaq üçün daha çox vaxt itirdikləri məlum olub. Birinci yerdə gözlənildiyi kimi, Nyu-York şəhərinin sakinləri durur. İşçilər bir tərəfə təqribən 40 dəqiqə sərf edir ki, bu da ölkə üzrə ümumi göstəricidən (25,8 dəqiqə) 15 dəqiqə daha çoxdur. İkinci yerdə Çikaqo, üçüncü yerdə isə Filadelfiya şəhərinin sakinləri durur.

Siyahıya diqqətlə nəzər yetirək(şəhər və yola sərf olunan vaxt)

**Nyu York - 39.7 saat**
**Çikaqo-33.7 saat**
**Filadelfiya-32 saat**
**San Fransisko-31.5 saat**
**Baltimor-30.5 saat**
**Los Anceles - 29.9 saat**
**Vaşinqton-29.9 saat**
**Boston-29.5 saat**

### Hər sürücü tıxaca görə ildə 1000 dollar itirir

Amerikalı nəqliyyat mütəxəssisi Edmon Klark hesab edir ki, tıxacda qalan sürücü təkcə vaxtını yox, pulunu da itirir. Belə ki, Avropada hər sürücü tıxaca görə orta hesabla ildə 1000 dollarını itirir. Bundan başqa, tıxac həm də havanın daha çox çirklənməsi deməkdir. Tıxac vaxtı atmosfer adi vaxtlarda olduğundan 4-5 dəfə artıq zəhərli maddələrlə "zənginləşir".

Azərbaycanla bağlı hesablamalarda da vəziyyət o qədər yaxşı deyil. Məsələn, vaxtilə 100 km yol üçün ortalama 5 manatlıq benzin istifadə olunurdusa, indi bu pula 70-80 km yol qət ediləcək benzin almaq olur. Ekspertlərin hesablamasına görə, Bakı yollarında hər gün 40-50 min maşın hərəkət edir və tıxaclarda qalan avtomobil gün ərzində kifayət qədər çox benzin işlədir. Türkiyədə isə hər gün tıxacda qalan maşın 2-4 litrdən artıq benzin işlətməli olur.

Adətən tıxacdan söz düşəndə hər kəs dünyanın iri şəhərlərində də bu problemin aktual olduğunu təsəlli kimi səsləndirir. Zəruri qeyd yerinə. düşər ki, uzun tıxaclarla bağlı statistika, reytinq cədvəli ildən-ilə dəyişir. Amma biz sizə son reytinq cədvəlini təqdim edəcəyik. Britaniya KİV-i dünyanın ən qorxunc tıxaclarının siyahısını hazırlayıb. Bunun üçün dünyanın ən çox yüklənmiş yolları, sürücülərin itirilən vaxtları, habelə itirilən yanacaq miqdarı da hesablanıb. Reytinqə ən yaxın qonşularımızdan olan Rusiya da düşüb. Daha dəqiq desək, paytaxt Moskva bu siyahıda 8-ci yeri tutub. Analitiklər hesab edir ki, orta hesabla 2.5 saat davam edən tıxac Moskvanı heç vaxt bu sahədə "lider" edə bilməzdi.

ABŞ-ın paytaxtı Vaşinqton da çox təvazökar bir yerdə - 14-cü sırada qərar tutub. Bu şəhərin küçələrindəki tıxaclarda ildə 560 milyon litr yanacaq itirilir. Avropa da bu məsələdə heç bir ölkədən geri qalmır. Varşava, Paris və Brüssel bu mənada "uğurlu" üçlük hesab olunur. Məsələn, Paris əhli ildə 70 saatlarını tıxaclarda keçirir.

### "Tıxaclı şəhərlər"də sürücünün maşınında nələr olmalıdır?

Tarixdəki ən uzun maşın tıxacı 2010-cu ilin 14 avqustunda Pekində yaşanıb. Həmin vaxt tıxac düz 9 gün davam edib. İlk 3 gündə tıxacın uzunluğu 100 kilometr olsa da, növbəti 6 gündə onun uzunluğu 260 kilometrə qədər çatıb. 10 minə yaxın sürücü bu müddəti kart və şahmatın köməyi ilə yola veriblər. Sürücülərin bəzi problemlərini isə yerli satıcılar həll etməyə çalışıblar. Onlar maşınlar arasında gəzərək sürücülərə su, fast-food, salfetka təklif ediblər. Amma onun qiyməti bazar qiymətlərindən iki dəfə baha olub. Həmin günlərdə Pekin şəhər rəhbərliyi hətta tıxaclar olan əraziyə səyyar ayaqyolu da quraşdırıb.

### "Tıxaclı şəhər"lərdə sürücülərin maşını marketi xatırladır - orda hər şey olmalıdır

San Paulo, Pekinə ilk dəfə gedən qonaqlar hər zaman sürücülərin öz maşınlarında bu qədər çox əşya saxlamasına təəccüblənir. Gününün ən azı 4 saatını tıxacda keçirən bu insanlar maşınlarına üzqırxan maşın, kompüter oyunları, şahmat taxtası, peçenyelər, sular, yumşaq balışlar.... qoyurlar. Çünki maşın onlar üçün ikinci ev funksiyasını daşıyır. San Paulo şəhər rəhbərliyinə bu tıxaclar ildə 2,3 milyard dollara başa gəlir. Tıxaclar o qədər dözülməz hala çatıb ki, şəhərin varlı sakinləri sürətlə vertolyot almağa başlayıblar və hazırda ölçüsünə görə dünyanın ikinci vertolyot dayanacağı məhz bu şəhərdədir.

Moskva nəqliyyatı bəzən o qədər sıx və gərgin olur ki, varlı ruslar bu əzabı yaşamamaq üçün Təcili Yardım maşını satın alırlar. Bununla da nəqliyyatın olduqca sıx olduğu saatlarda şəhər içində təcili yardım maşını ilə maneəsiz hərəkət edirlər.

### Hansı şəhər tıxacdan necə qaçıb?

Londonun taksi sürücüləri xam müştəriləri saatlarla davam edən tıxac hekayələri ilə qorxutmağı sevirlər. Əslindəsə belə hekayələr 20 il əvvəl daha populyar idi. Miqrant dalğası, gərginləşmiş yollar, dar küçələr... 1980-ci illərə qədər bu problemlərlə müəyyən qədər mübarizə aparmaq olurdu. 1985-ci ildə isə Marqaret Tetçer Londonda şəhər özünüidarəetmə sistemini ləğv etdi. Mer "toy generalı"na çevrildi, meqapolisin 33 rayonu isə müstəqil həyat tərzini yaşamağa başladı. Şəhər infrastrukturunun mərkəzləşdirilməsinin inkişafı ilə heç kim məşğul olmadı, nəticədə isə London yüksəlişə keçdi.

1997-ci ildə leyborist Toni Bleyrin baş nazir postuna gəlişindən sonra isə şəhər özünüidarəetməsi bərpa olundu. London assambleyası bərqərar oldu, şəhər merini seçməyə başladılar, problemləri isə mərkəzləşdirilmiş qaydada həll etmə yolu seçildi.

2000-ci ildə ultra proqressiv Ken Livinqston şəhər meri seçildi və dərhal şəhər nəqliyyatı problemi ilə məşğul olmağa başladı.

Görülən tədbirlərə diqqət: 2002-ci ildə Livinqston şəhərinin tarixi mərkəzlərinə - Sitiyə, Vest Endə, Vestminsterə və Soxoya girişi ödənişli etdi. Belə giriş hər maşın sahibinə 5 funta (indi 8 funt olub) başa gəlirdi. Təbii ki, səhər saat 7-dən axşam 18.30-a qədər olan vaxt üçün bu tarif keçərli idi. Yerdə qalan saatlarda isə pulsuz giriş etmək mümkün idi.

Maşınların axınına nəzarət etmək üçün Livinqston Londonun 21 km-lik mərkəzi hissəsinə videokameralar yerləşdirib. Bu kameralar sözügedən ödənişli ərazilərdən keçən maşınları müəyyənləşdirir. Həmin ərazidən keçən sürücü isə elə həmin gün saat 22.00-a qədər ödənişi həyata keçirməlidir. Ya bankda, ya aparatlar yerləşdirilən adi mağazada, ya da internet vasitəsilə. Ödəniş ilk gün olanda 5 funt ödəmək lazım gəlirdisə, gecikmə olanda bu məbləğ 10 dəfə artaraq, 50 funta çatırdı.

Ödənişdən ancaq təxirəsalınmaz xidmətlərə aid avtomobillər, taksi və motosikllər azad olunur.

Bundan başqa, Londonda indi oyun qaydaları da sərtləşdirilib. Belə ki, yol qaydaları pozuntuları ilə bağlı böyük bir sistem mövcuddur. Bütün yol xətaları 5 qrupa bölünür. Ən yüngül pozuntunun cəriməsi 200 funtdan başlanır, 5 min funta qədər davam edir. Təbii ki, bal cəriməsini də unutmayaq. Üç il ərzində 12 bal yığan sürücü 6 ay maşın sürə bilməz.

Livinqston park yerləri barədə də unutmayıb. Londonda parkinqin 1 saatı 4 funt məbləğindədir. Dalbadal 2 saatdan artıq parkinq yerində maşın saxlamaq qadağandır. Əks halda, yenidən cərimə və evakuasiya gündəmə gələ bilər.

London meriyası həmçinin maşın sahiblərinə "Car Sharing" adlı bir metod da təklif ediblər. Bu metoda əsasən, eyni ərazidə yaşayan məmurlar iş yerinə eyni maşınla gəlməklə tıxac problemini həll edə bilər. Amma londonlular bu təklifə o qədər də isti yanaşmayıb. Çünki yad adamla eyni maşında işə getmək heç də hamı üçün xoş sayılmır.

Keçək Sinqapur təcrübəsinə. 1990-cı ildən etibarən burda da olduqca sadə çıxış yolundan istifadə olunur. Nə qədər az maşın, o qədər az tıxac. Ona görə də hakimiyyət maşın satışını nəzarət altına alıb. Maşın sahibi olmaq istəyənlər 10 illik maşın idarə etmə lisenziyası əldə etməlidirlər. Bunun üçün hökumətin keçirdiyi aylıq auksionda iştirak etmək lazımdır. Xüsusi saytlarda keçirilən auksionda isə on min icazədən birini almaq üçün aktiv olmaq lazımdır. Lotonun qiyməti 15-20 min dollara yaxındır. Bütün hallarda bu, auksiondur - bəxtiniz gətirməyə də bilər.

Hökumətin bu sərt qadağasına qarşı çıxmaq istəyənləri isə yarım illik türmə həyatı gözləyir. Olduqca baha başa gələn avtomobili sürmək isə Sinqapurda az qala zövqdür. Çünki tıxacdan əsər-əlamət olmur.

Nyu-Yorkada isə sabiq şəhər rəhbəri Rudolf Culiani tıxacdan çıxış yolunu tapıb. 1993-cü ildə sözügedən vəzifəyə gələn mer olduqca sərt çıxış yolları düşünüb. Mer şəhərdə taksi və avtobusların sayını iki dəfə artırıb, onların qrafikinə ciddi nəzarət edən qurum yaradıb. Bundan başqa, ictimai nəqliyyatın olduqca effektli olması ilə bağlı təbliğat kampaniyası aparıb. Nəticədə isə şəhər sakinlərini ictimai nəqliyyatın effektli olmasına inandıra bilib. Hətta indi şəhərdə zarafat edirlər ki, tıxacı yaradan əsas faktor çoxsaylı taksilərdir.

2004-cü ildə Culianini əvəz edən Maykl Blumberq də 2007-ci ildən etibarən Manxettenə girişi ödənişli edib. Minik maşınları üçün 8 dollar, yük maşınları üçünsə 21 dollar. Amma bu ödənişli giriş sistemi şəhər sakinlərinin 61 faizi tərəfindən narazılıqla qarşılanıb. Bununla belə, paralel var: londonlular da əvvəl belə etiraz ediblər, sonra razılaşıblar.

Tıxac problemini həll etmək istəyən yaponlar texnologiyanın ən son nailiyyətlərindən də istifadə ediblər. Sinqapurda olduğu kimi, Tokioda da nəqliyyatın idarəetmə sistemi bütünlüklə avtomatlaşdırılıb. Şəhər sensor və kameralarla doludur. Bu informasiyalar təkcə yol polisləri üçün deyil. Eyni zamanda sıravi sürücülər də bundan istifadə edə bilərlər. Amma Tokioda sürücüləri daha çox qorxudan cərimələrin çoxluğudur. Şəhərdə özəl kampaniyalardan olan müfəttişlər pozuntulara nəzarət edir. Tutaq ki, maşını səhv parkinq etdiniz. Dərhal maşının üstünə qəbz yapışdırılacaq. İkinci qəbzdən söhbət gedə bilməz. Səhv parkinq maşın yiyəsinə 250 dollara başa gəlir. Tokioda hətta velosipedçiləri də cəzalandırırlar.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 140 (7029) 2 iyul 2018



# Ölümdən sonra həyat varmış - bu da sübutu

**Britaniyanın Sauthempton Universitetinin mütəxəssisləri belə qənaətə gəliblər ki, insan öləndən sonra da düşünə bilir. Alimlər ölümdən sonrakı həyatla bağlı araşdırmalarını 2060 nəfərin üzərində aparıblar. Alimlərin araşdırma apardıqları insanların hamısı ürək dayanması və kliniki ölüm yaşayanlar olub.**

Qeyd edək ki, ölümdən 90 saniyə sonra ürək dayanır, beyin fəaliyyətini tamamilə itirir və insan düşünə bilmir. Lakin üzərilərində araşdırma aparılanlardan bəziləri bildiriblər ki, kliniki ölüm baş verdikdən sonra 3 dəqiqə ərzində ətraflarında baş verənləri hiss edə biliblər. Hətta 57 yaşlı şəxs baş verənləri dəqiqliklə təsvir edib.

Mütəxəssislərin fikrincə, bu insanın danışdıqları həqiqətdir, amma buna qədər həmişə onları illüziya və hallüsinasiyada ittiham edirdilər. Araşdırmada iştirak edən digər şəxslər bildiriblər ki, onlar ürəyin dayanmasından sonra belə, qorxu hissini xatırlayırlar.

Alimlər kliniki ölümdən sonrakı halların həmin insanların danışdıqlarından da çox müddətdə baş verə biləcəyini istisna etmirlər.

# Camaat əli ilə yazır, o, burnu ilə

**Hindistanın Haydarabad şəhərində yaşayan Məhəmməd Xurşud Hüseyn burnu ilə kompüterdə yazı yığmaq üzrə dünya rekorduna imza atıb. Bir neçə il öncə "Ginnesin rekordlar kitabı" ekspertlərinin müşayiəti ilə 23 yaşlı kişi 47.44 saniyə ərzində 103 söz yığa bilib. Məhəmmədin çap etdiyi mətn bu cümlələrlə başlanıb: "Ginnesin rekordlar kitabı" məni ona görə seçdi ki, mən bu mətni ən qısa zaman ərzində yığım".**



Yığım zamanı diqqəti yayılmasın deyə Məhəmməd gözünün birini yumub. Bundan başqa, onun əlləri boynunun arxasına bağlanıbmış. Bu rekordu əldə etmək üçün kişi son üç ildə gün ərzində 6 saat boyunca məşq edib.

# Sutka ərzində neçə selfi çəkirsiz?

**Psixoloqlar mobil telefonun ön kamerasının köməyi ilə öz şəklini çəkməyi sevən həvəskarları üç qrupa ayırıblar. "Azərtac"ın xəbərinə görə, birinci mərhələdə adam gündə təqribən üç dəfə öz şəklini çəkir, lakin bu şəkilləri internetdə yerləşdirmir. Şəkillərini sosial şəbəkələrdə paylaşanda artıq ikinci mərhələ başlayır. Bu mərhələdə selfi həvəskarının artıq peşəkar psixoloqa ehtiyacı olur.**

Üçüncü mərhələdə adam artıq gündə altı şəkil çəkdirərək, onları daim şəbəkədə yerləşdirir. Onun bu halı artıq nevrozdur. Bu mərhələdə adam oxucuların fikrindən o qədər asılı olur ki, daim kənar adamlardan selfiyə reaksiya gözləyir və bu asılılığın öhdəsindən müstəqil gələ bilmir.

Əvvəllər alimlər qeyd edirdilər ki, tez-tez öz şəklini çəkib internetdə yerləşdirən kişilər psixopatiyaya meyillidirlər. Bundan başqa, kişilərin şəlfi həvəsi həm də özünə vurğunluğun əlamətidir.



# Muzeydəki sənət əsərini krossvord hesab etdi və...

**Nürnberqdəki İncəsənət və Dizayn Muzeyinə gələn yaşlı ziyarətçi muzeydəki bir incəsənət nümunəsini krossvord olaraq qəbul edərək onu qələmlə doldurub. Lenta.ru saytının xəbərinə görə, 91 yaşlı qadın qrupla birgə ekskursiyada olub. O, art obyektlərdən birinin yanında yazılmış "sözləri yaz" elanını görüb və bunu krossvord kimi qəbul edib. Hadisə yerinə gələn polislər də qadından izahat alıblar. Sözügedən sənət nümunəsi rəssam avanqardçı Artur Kepkeyə məxsus idi və 1960-cı illərdə yaradılıb. Onun qiyməti 116 min dollar olub. Muzey direktoru Eva Krauze deyib ki, sənət əsərinə dəyən ziyan muzey tərəfindən ödəniləcək. Onlar polisi isə sırf sənədləşdirmə işinə, sığorta ödəmələrinə görə çağırıblar: "Biz yaşlı qadına deyəcəyik ki, kolleksioner baş vermiş hadisəni yumor hissi ilə qarşılayıb. Odur ki, o, indi rahat yata bilər".**

# Qoroskop





**QOÇ** - Daxilən sıxıntılı ərəfə yaşayacaqsınız. Düzdür, ovqatınızı korlayan nəsnələr olmayacaq, lakin səbəbsiz nigarançılıqdan da uzaqlaşa bilməyəcəksiniz. Bu gün varlana da bilərsiniz.


**BUĞA** - Bir qədər darıxdırıcı gündür. Amma bədbinləşib tək-tənha bir küncdə oturmaq da yaramaz. Heç olmasa, ulduzların "hə" dediyi maliyyə məsələləri ilə məşğul olun. İnsanlardan xoflanmayın.


**ƏKİZLƏR** - Bu gün rahat keçməsə belə, ciddi xoşagəlməzlik də olmayacaq. Nahardan sonra sizi sürprizlər gözləyir. Gələcək fəaliyyətiniz də məhz bundan asılı olacaq. Uzaq yola çıxmayın.


**XƏRÇƏNG** - Təkbaşına hansısa məsələyə müdaxilə etməyin. Əks təqdirdə nəzərdə tutduğunuz ideyaları reallaşdıra bilməyəcəksiniz. Tərəfdaşlarınızın sayını artırın ki, qalib olasınız.


**ŞİR** - Astroloji göstəricilər böyük işlər görəcəyinizi, ağıllı risklər edəcəyinizi bəyan edir. Hətta maddi durumunuz imkan versə, uzaq yola da çıxa bilərsiniz. Qidanıza fikir verin.


**QIZ** - Hər mənada uğurlu gün yaşayacaqsınız. Şəxsi işlərinizdə, eləcə də qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə olacaq. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür.


**TƏRƏZİ** - Narahatçılığınızı artıran məsələləri yoluna qoymaq üçün danışıqlara başlamağınız vacibdir. Həftə ərzində gözlənilən uğurlar üçün bunun böyük səmərəsi ola bilər. Təzə xəbər də gözlənilir.


**ƏQRƏB** - İyulun bu isti günündə emosional çıxışlara ara verməli, yalnız konkret işlərlə məşğul olmalısınız. Günün ikinci yarısını dost-tanışla, doğmalarınızla gəzinti və əyləncəyə həsr edin.


**OXATAN** - Saat 14-ə qədər qeyri-ənənəvi işlərlə məşğul olmayın, xüsusən də nahar ərəfəsində. Sonrakı müddətdə isə işgüzar aktivliyinizi artırmalısınız. Bəxtinizdə pul da var.


**OĞLAQ** - Cərəyan edən hadisələr çıxardığınız qərarlardan asılı olacaq. Odur ki, əvvəl götür-qoy edin. Bu arada etibar etdiyiniz adamlardan kimsə sizə yalan sata bilər. Səfər də uğurludur.


**SUTÖKƏN** - Ciddi götür-qoy etməsəniz, həlledici məqamlarda yanıla bilərsiniz. Yersiz risklərə meylinizi azaldın. Sizə vəd verənləri mələk hesab etməyin. Sadəlövhlük insana zərər yetirir.


**BALIQLAR** - Daxili narahatçılığınız tədricən aradan qalxacaq. Sevdiyiniz adamlarla bir yerdə olmağınız nikbinliyinizi artıracaq. Bu arada kobud rəftardan və şit zarafatlardan uzaq durmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Dünyanın ən mükəmməl üzünü yaratdılar

**Londondakı plastik cərrahiyyə mərkəzi ideal qadın portretini yaradıb. Onlar bunu hazırlamaq üçün kompüter kartoqrafiyasından istifadə ediblər. Məlum texnologiya sifət quruluşunun mükəmməl olması üçün bəzi dəyişiklikləri özündə ehtiva edir.**



Qeyd olunur ki, ideal qadın sifətinin cizgiləri mükəmməl hesab olunan məşhur simaların ayrı-ayrı hissələrinin toplusudur. Portret üçün aktrisa Ember Herdin burnu, Kim Qardaşyanın qaşları, aktrisa Skarlet Yoxansonun gözləri, Rihannanın üz quruluşu və maneken Emili Ratakovskinin dodaq quruluşundan istifadə olunub.

Daha öncə London Mərkəzinin cərrahları Ember Herdin üzünü dünyanın ən gözəl üzü hesab ediblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100